YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17-18 dekabr 2016-cı il Şənbə № 281 (6602) Qiyməti 60 qəpik

Xəbər

**Bakıda avtobus sürücüləri qadını zorlayıb**

yazısı səh.15-də

Gündəm

**Parlament 2017-ci ilin dövlət büdcəsini təsdiqlədi - hökumət güzəştə getmədi**



Deputatlar Vergilər Məcəlləsinə 201 sayda dəyişikliyin lehinə səs verdilər; "Hərbi vəziyyət haqqında" qanun isə ilk oxunuşda qəbul olundu

yazısı səh.7-də

**"Motodrom"dakı sökülən evlərə kompensasiya ödəyən şirkətin adı açıqlanmır**

yazısı səh.12-də

**İrəvanda Bakıya gələn ermənilərin öldürülməsinə çağırışlar səslənir**

yazısı səh.11-də

**Neft hasilatının azalması Azərbaycana necə təsir edəcək...**

yazısı səh.12-də

**Amerika FES-in əli ilə dünyanı dəyişir - iddia**

yazısı səh.10-da

**Son günlərin əsas "qəhrəmanı" - Ənvər Seyidov...**

yazısı səh.2-də

**Xəzərdə baş verən qəzanın səbəbi; məsuliyyətsizlik, yoxsa təxribat?**

yazısı səh.5-də

**Sabiq məmuru killer tutub güllələdən qadın hakim qarşısına çıxarıldı**

yazısı səh.15-də

**Azərbaycan Qarabağ strategiyasına düzəliş edə bilər**

yazısı səh.11-də

**Amerikalı enerji emissarının Bakı səfərində əsas hədəf**

yazısı səh.9-da

**SOCAR qazın qiymətinin 18 qəpik olmasını istəyib - rəsmi açıqlama**

yazısı səh.5-də

## Netanyahu, Hokstayn, İzoria və Roqozin...

# BAKIYA EMİSSAR AXINININ İLGİNC PƏRDƏARXASI - SAAT ƏQRƏBLƏRİ YENİDƏN TUTUŞDURULUR

Azərbaycandan Rusiyaya verilən yeni incə mesajlar və onların arxasındakı hədəflər; Qarabağ məsələsi hərbi-texniki və energetik təhlükəsizlik məsələləri ilə eyni kontekstdə gündəmə gətirilir - mühüm gəlişmə...



yazısı səh.8-də

# İranla İsrailin gizli neft alveri - milyardlarla neft pulları hardadır?

Göyərtəsində 18 milyard avro pul olan təyyarə gecəyarı Bakı aeroportuna enir; hava gəmisi Frankfurtdan qalxmışdı...

yazısı səh.6-da




**Xalqa "az ye" deyən şişman deputat haqda sensasion məlumatlar**

yazısı səh.13-də



*Azay Quliyev:*

**"Ermənilər Dağlıq Qarabağda daim qorxu və səksəkə içində yaşamaq istəmirlər"**

yazısı səh.3-də



*Hikmət Hacızadə:*

**"Demokratiyanın sonunu görmürəm"**

yazısı səh.9-da



## Prezident itkin düşən neftçilərlə bağlı sərəncam imzaladı

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azneft" İstehsalat Birliyinin neft yığım məntəqəsində baş vermiş hadisə ilə əlaqədar bəzi tədbirlər haqqında sərəncam imzalayıb.**

2016-cı il dekabrın 15-də Xəzər dənizində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azneft" İstehsalat Birliyinin N.Nərimanov adına Neft-Qaz Çıxarma İdarəsinin 3 saylı neft yığım məntəqəsində baş vermiş hadisənin səbəblərinin araşdırılması və nəticələrinin aradan qaldırılması məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti baş vermiş hadisə zamanı itkin düşənlərin axtarışı və xilasetmə işlərinin sürətləndirilməsini təmin etsinlər.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti hadisə nəticəsində zərər çəkmiş şəxslərə və həlak olanların ailə üzvlərinə maddi və digər zəruri yardım göstərilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti:

**3.1.** hadisə nəticəsində "Azneft" İstehsalat Birliyinin N.Nərimanov adına Neft-Qaz Çıxarma İdarəsinin 3 saylı neft yığım məntəqəsinə dəymiş zərəri və məntəqənin yararlılıq vəziyyətini müəyyənləşdirsin;

**3.2.** hadisənin nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirsin;

**3.3.** tabeliyində olan müəssisələrdə obyektlərin və qurğuların texniki təhlükəsizlik norma və qaydalarının tələblərinə uyğun istismar edilməsi və onların təhlükəsiz istismarı müddətlərinə riayət olunması vəziyyətini araşdırsın və aşkar edilmiş nöqsanları aradan qaldırsın.

**4.** Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, baş vermiş hadisənin səbəblərinin araşdırılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirsin.

**5.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

## "Yeni Müsavat" "mahmudovçu"nun müəmmalı ölümündən yazdı, Baş Prokurorluq reaksiya verdi

**Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzinin rəis müavini vəzifəsində işləmiş İlqar Mustafa oğlu Əliyevin ölümü ilə bağlı qəzetimizə rəsmi məlumat yollayıb.**

Xidmət rəhbərinin yolladığı məlumatda deyilir: "Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə bağlı Azərbaycan Respublikası Baş Prokurorluğunda başlanmış cinayət işi üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təqsirləndirilən və məhkəmə qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilmiş nazirliyin Antiterror Mərkəzinin rəis müavini vəzifəsində işləmiş Əliyev İlqar Mustafa oğlunun 20 dekabr 2015-ci il tarixdə Penitensiar Xidmətin Bakı İstintaq Təcridxanasında saxlanıldığı kamerada mələfədən asılmış meyitinin aşkar edilməsi faktı üzrə həmin tarixdə Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanaraq istintaq aparılır. İş üzrə şahidlər dindirilib, məhkəmə-tibbi, kompleks məhkəmə-psixatirik və məhkəmə-psixoloji ekspertizaları keçirilib, iş üçün əhəmiyyət kəsb edən sənədlər tələb edilərək götürülmüş və digər zəruri istintaq hərəkətləri həyata keçirilib.

Toplanmış istintaq materialları ilə İlqar Əliyevin özünü asaraq intihar etməsi təkzibedilməz sübutlarla təsdiq edilməklə, baş vermiş hadisədə kənar şəxslərin hər hansı bir formada iştirakı və ya təqsirli olması müəyyən olunmayıb.

Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir".

Xatırladaq ki, İ.Əliyev ötən il dekabrın 20-də saxlanıldığı Bakı İstintaq Təcridxanasındakı saxlanıldığı kamerada asılmış vəziyyətdə aşkarlanıb. Onun ölümü ilə bağlı qəzetimizdə kifayət qədər yazılar dərc olunub, ən müxtəlif versiyalar, fikirlər dərc olunub. Sonuncu belə yazı "Yeni Müsavat"ın dekabrın 14-də işıq üzü görən sayında "Təcridxanada ölən sirr "dağarcığı"..." (http://musavat.com/news/olke/tecridxanada-olen-sirr-dagarcigi_400216.html) sərlövhəsi altında dərc olunub.

❑ E.MƏMMƏDƏLİYEV

# Xəzərdə baş vermiş qəza ilə bağlı cinayət işi açılıb

**Prezident İlham Əliyevin 2016-cı il dekabrın 15-də Xəzər dənizində Dövlət Neft Şirkətinin "Azneft" İstehsalat Birliyinin N.Nərimanov adına Neft-Qaz Çıxarma İdarəsinin 3 saylı neft yığım məntəqəsində baş vermiş hadisənin səbəblərinin araşdırılması barədə imzaladığı sərəncamın icrası ilə əlaqədar hadisənin texniki səbəblərinin müəyyən edilməsi, müvafiq istintaq hərəkətlərinin aparılması, o cümlədən xüsusi biliklərə malik olan mütəxəssislər cəlb olunmaqla texniki təhlükəsizlik və digər ekspertizaların keçirilməsi zərurətini nəzərə alaraq faktla bağlı Cinayət Məcəlləsinin 162.2-ci (Əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.**



Baş Prokurorluğun mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, istintaqın aparılması Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinə tapşırılmaqla hadisənin baş vermə səbəblərinin müəyyənləşdirilməsi məqsədi ilə Fövqəladə Hallar Nazirliyi və Baş Prokurorluğun əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılmışdır.

Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Qeyd edək ki, dekabrın 15-də saat 05:00 radələrində Xəzər dənizində 41 metr/saniyə sürəti ilə əsən güclü külək "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin 3 saylı Neft Yığım Məntəqəsinin sağ və sol hissəsində yerləşən estakadanın uzunluğu təqribən 150 metr olan hissəsini dənizə uçurub. Hadisə nəticəsində Neft Yığım Məntəqəsinin növbədə olan 5 nəfər və yaşayış budkasında olan 5 nəfər (cəmi 10 nəfər) əməkdaşı itkin düşüb. İtkin düşən neftçilərin axtarışı davam edir.

## Son günlərin əsas "qəhrəmanı" - Ənvər Seyidov...

**Beyninə qan sızan hakim sosial şəbəkələrdə sərt şəkildə qınanır; ictimaiyyət qəlbindəki etirazı bir şəxsin üzərindən etməklə təskinlik tapır.**

Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Ənvər Seyidovun beyninə qan sızmasından sonra xəstəxanaya yerləşdirilməsi son günlərin əsas müzakirə mövzularından biri oldu. Tanınmış hakim sosial şəbəkələr və mətbuatın bir anda "qəhrəman"ına çevrildi.

Qısa zamanda ictimaiyyət daxilində Ə.Seyidova nə qədər mənfi münasibətin olduğu üzə çıxdı. Sosial şəbəkələrdə çoxları onun fotolarını paylaşır, xəstə yatağında olan bir şəxsi tənqid edirlər. Məşhur hakim daha çox müxalifət fəalları və müxalif meylli şəxslər tərəfindən "məhşər ayağına" çəkilir. Sanki ictimaiyyət qəlbində olan etirazı bir şəxsin üzərindən etməklə təskinlik tapır. Ə.Seyidovun hökm oxuduğu şəxslərin şəkilləri paylaşılır, onun sifarişlə indiyə qədər çoxsaylı insanın həyatını məhv etdiyi vurğulanır.

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** bildirdi ki, Ə.Seyidov Azərbaycanda əksər siyasi məhkəmə proseslərinin qərarverici şəxslərindən biri olub: "Verdiyi qərarlara görə də birbaşa məsuliyyət daşıyır. Onun qərarlarından əziyyət çəkmiş vətəndaşlar, onların ailələri, qohumları bu məsələyə münasibət bildirirlər. Ümumiyyətlə, hər bir vətəndaşın belə proseslərdə mövqe bildirmək hüququ var. İnsanları başa düşmək olar. Onun özü də eslində buna hazır idi. Bilirdi ki, onu sonda belə situasiya gözləyir, amma yolunu getməkdə davam etdi. Ölkədə mövcud durum ağırdır, getdikcədə vəziyyət pisləşir. Gözlənilən odur ki, bu nifrət, qəzəb, gərginlik getdikcə artacaq. Bu təkcə iqtisadi böhran deyil. Dəyərlər və digər sahələrdə də tənəzzül yaşanır. Ona görə də cəmiyyət daxilində belə əhval-ruhiyyə var. Ənvər Seyidovun yerinə başqası da ola bilər, sadəcə insanlar bu şəxsin verdiyi qərarlardan xəbərdardırlar, ona görə ədalətsiz qərarlarına görə onu hədəfə alırlar. Ənvər Seyidovun arxasında duran hakimiyyət idi. Bu baxımdan ona olan münasibəti hakimiyyətə olan münasibət kimi də qəbul etmək olar. Bununla insanların təskinlik tapdıqlarını da demək mümkündür".

❑ Cavanşir ABBASLI





## "Nar" və "İrşad Electronics"dən növbəti müştərək kampaniya

Yeni il ərəfəsində "İrşad Electronics"dən smartfon və ya planşet al, "Nar"-dan hədiyyələr qazan!




**"Nar" və "İrşad Electronics" mağazalar şəbəkəsi növbəti birgə kampaniyaya start verdilər. Belə ki, 17 gün davam edəcək kampaniya çərçivəsində hər bir kəs yalnız komissiya haqqı ödəmək şərtilə "İrşad Electronics" dükanlarından 6 aylıq faizsiz ödəmə ilə istənilən smartfonu və ya başqa cihazı ala bilər. Əlavə olaraq, smartfon almış hər bir şəxs bonus şəklində "Nar"-dan nömrə, aylıq 33,33 AZN dəyərində şəbəkədaxili danışıq balansı və 250 MB internet trafiki hədiyyə alır.**

**Kampaniyadan yararlanıb mobil telefonları əldə etmək üçün "Nar"-ın rəsmi tərəfdaşı olan "İrşad Electronics" mağazalarına müraciət etmək kifayətdir. 15 dekabr - 31 dekabr 2016-cı il tarixləri arasında aktiv olacaq kampaniya bütün məhsullara əhatə edir.**

**Əlavə məlumatı nar.az internet səhifəsi və "İrşad Electronics" çağrı mərkəzi (*0171) vasitəsilə öyrənmək olar.**




## Ramil Usubov əlillərlə bağlı Ramiz Zeynalova tapşırıq verdi

**Daxili işlər naziri, general-polkovnik Ramil Usubov əlillərlə bağlı Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova tapşırıq verib.**

APA-nın məlumatına görə, R.Usubov dekabrın 16-da yol patrul xidməti əməkdaşlarına sıra baxışı keçirib.

Sıra baxışından sonra keçirilən tədbirdə çıxış edən nazir əlillərə verilmiş və verilməsi nəzərdə tutulan avtomobillərin dövlət hesabına xüsusi idarəetmə sistemi ilə təchiz olunması məqsədilə hökumət qarşısında vəsatət qaldırılması üçün müvafiq sənəd layihəsinin hazırlanması, həmçinin bu cür avtomaşınları idarə etmək vərdişlərini aşılamaq məqsədi ilə xüsusi təlim kurslarının təşkil edilməsi barədə Baş İdarənin rəisinə tapşırıq verib.

## Polis rəisi əməliyyat olundu və vəfat etdi

**Qazax Rayon Polis Şöbəsinin rəisi polis polkovniki Natiq Həsənov Bakının Binəqədi rayonunda yerləşən Avrasiya klinikasında dünyasını dəyişib.**

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Liya Bayramova** Axar.az-a açıqlamasında olayın nazirlik tərəfindən araşdırılmadığını bildirib: "Özəl klinikada baş verən ölüm hadisəsini nazirlik yalnız müraciət daxil olduğu təqdirdə araşdırır. Bu hadisə barədə isə məlumatımız yoxdur və müraciət də daxil olmayıb".

**Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov** isə bildirib ki, ölüm faktı ilə bağlı Binəqədi Rayon Prokurorluğunda araşdırmaya başlanılıb.

Xatırladaq ki, bu gün Qazax Rayon Polis Şöbəsinin rəisi polis polkovniki Natiq Həsənov əməliyyatdan sonra baş verən qanaxma nəticəsində dünyasını dəyişib. Report report.az-ın məlumatına görə, 52 yaşlı polis rəisi mədəsindən əməliyyat olunub.

YENİ MÜSAVAT
N 281 (6602) 17 dekabr 2016

# "Belə bir fürsətin qaçırılmasını tarix heç kimə bağışlamayacaq"

## Azay Quliyev: "Ermənilər Dağlıq Qarabağda daim qorxu və səksəkə içində yaşamaq istəmirlər"

**ATƏT Parlament Assambleyasının (PA) vitse-prezidenti, Milli Məclisin deputatı Azay Quliyev Milli Məclisdə akkreditə olunan jurnalsitlər üçün brifinq keçirib. Deputat "Ermənistan-Azərbaycan Sülh Platforması" ilə bağlı ətraflı məlumat verib.**

Sülh Platformasının yaranması barədə danışan A.Quliyev qeyd edib ki, təmas xəttində aprel döyüşləri Azərbaycan-Ermənistan münaqişəsində yeni reallıqlar yaratdı və faktiki olaraq iki istiqamətdə status-kvonu dəyişdi. Onun sözlərinə görə, aprel hadisələrinin təkrarlanmasından ehtiyatlanan erməni ictimaiyyətinin nümayəndələri azərbaycanlı həmkarlarına müraciət edərək, münaqişənin həlli yollarını birgə müzakirə etməyi təklif ediblər.

**ATƏT PA rəsmisi Ermənistan və Azərbaycan prezidentlərinə ünvanlanan müraciətdən də bəhs etdi:** "Müraciətdə uzunmüddətli sülhün və barışın təminatı kimi Azərbaycanın işğal olunmuş ərazilərinin qeyd-şərtsiz azad edilməsi, bütün məcburi köçkünlərin öz evlərinə qaytarılması, Ermənistan və Azərbaycan arasında əlaqələrin bərpası, Dağlıq Qarabağın hüquqi statusunun Azərbaycanın tərkibində müəyyənləşdirilməsi və orada yaşayan ermənilərin və geri dönəcək azərbaycanlıların təhlükəsizliyinin təmin edilməsinin mümkün olduğu qeyd edilir".

A.Quliyev dedi ki, Ermənistandan 3 QHT və hüquq müdafiəçisi, Azərbaycandan isə 3 QHT 7 noyabrda yaradılan Platformanın təsisçiləridir.

**Erməni tərəfin Platformaya bu qədər çox maraq göstərməsinin səbəblərinə gəldikdə, A.Quliyev bunları bildirdib:** "Əvvəla, əksər ermənilər artıq başa düşür ki, Köçaryan-Sərkisyan cütlüyü tərəfindən ciddi şəkildə aldanılıblar. Çünki Dağlıq Qarabağ münaqişəsi fonunda hakimiyyəti zəbt edən bu cütlük verdikləri vədin heç birinə, yəni qondarma DQR"in dünya tərəfindən tanınacağı, bu mübarizənin erməni xalqına xoşbəxtlik və rifah gətirəcəyi haqda söylədikləri özünü doğrultmadı. Tam əksinə, "DQR" onlara göz yaşı, övlad, qardaş və ata itkisi, yoxsulluq və faciədən başqa heç nə vermədi. Ermənilər özgənin torpaqlarında xoşbəxt ola bilməyəcəklərini anladıqlarından və bu torpaqların sahibinə qaytarılmasının ilk onların özlərinin xeyrinə olacağını başa düşdüklərindən bu platformaya qoşulublar və bu proses indi də davam edir. Erməni ictimaiyyətinin nümayəndələri Sarkisyan rejimi tərəfindən onlara qarşı olan bütün təhlükələri və təzyiqləri göz önünə alaraq, Ermənistan-Azərbaycan sülh platformasına qoşulurlar. İkincisi, ermənilər gəlib başqasının torpağında ölmək istəmirlər. Üçüncüsü, isə Dağlıq Qarabağda daim qorxu və səksəkə içində yaşamaq istəmirlər. Ona görə də ermənilər tez bir zaman ərzində münaqi-



şəni sülh yolu ilə həll edib, bütün sivil ölkələrdə olduğu kimi, rahat və normal şəraitdə yaşamaq isəyirlər. Bu baxımda vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, QHT təmsilçiləri, Sərkisyan rejiminin idarəçiliyi ilə uçuruma sürüklənən Ermənistanın taleyinə biganə qalmayan ictimai aktivlər bu təşəbbüsə dəstək verirlər.

Platformaya qoşulan ermənilərə Sarkisyan rejimi tərəfindən niyə divan tutulur?

**A.Quliyev dedi ki, Ermənistan rəhbərliyi bütün gücünü səfərbər edib ki, bu platformanın fəaliyyətini dayandırsın və sülh yaratma konsepsiyası iflasa uğrasın:** "Son 3 gündə mətbuat vasitəsilə "Ermənistan-Azərbaycan Sülh Platforması"na qoşulmaq istəyən 2 erməni gəncə və onların yaxınlarına mənəvi, fiziki basqılar və təhdidlər edilir, onların ailə üzvləri və özləri həbs edilir. Bunlar arasında erməni publisist, ictimai fəal Lusine Nersisyanın Xankəndində Ermənistan təhkükəsizlik orqanları tərəfindən həbs olunması, eləcə də digər erməni fəalı Armen Virabyanın anasının və yaxınlarının işdən azad edilərək, təhqir və fiziki təzyiqlərə məruz qalmasını göstərmək olar".

**ATƏT PA rəsmisi beynəlxalq reaksiyalara da toxundu**: "İlk növbədə Avropa İttifaqının Bakıdakı ofisinin rəhbəri səfir Malina Marda platformaya verdiyi dəstəyə və Lusine Nersisyanın Xankəndində qanunsuz həbsini pislədiyinə görə təşəkkür edirəm. Hesab edirəm ki, digər beynəlxalq təşkilatlar, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədrləri də bu prosesə münasibət bildirməlidirlər. ATƏT-in Minsk Qrupunun həmsədrlərinə xitabən Hamburqda ATƏT PA-nın büro iclasında etdiyim müraciəti bir daha təkrarlamaq istəyirəm. 25 illik münaqişənin tarixində ilk dəfə bir araya gələn Ermənistan və Azərbaycan xalqlarının nümayəndələrinin sülh çağırışına laqeyd qalmayın, onların səsinə səs verin, Sülh platformasının fəaliyyətini dəstəkləyin və bölgənin ən qanlı münaqişəsinin həlli üçün nəhayət malik olduğunuz mandatdan səmimi şəkildə istifadə edin. Belə bir fürsətin qaçırılmasını tarix heç kimə bağışlamayacaq".

**Qeyd edək ki, A.Quliyev Milli Məclisin 16 dekabr iclasındakı çıxışında həmkarlarına müraciət edərək, platformanı bütün beynəlxalq təşkilatlarda, ATƏT PA, AŞPA, NATO PA, Avronest PA, QDİƏTPA və digərlərində, o cümlədən xarici ölkələrlə yaradılan dostluq qruplarında təqdimatına və onların dəstəyini əldə etməyə çağırıb:** "Eyni zamanda Azərbaycan ictimaiyyətinin də bu prosesdə fəal olmağa, bu təşəbbüsü həm daxildə, həm də xaricdə dəstəkləməyə çağırıram".

❑ **E.PAŞASOY**
**FOTO: "YM"**

# Onlayn alış-veriş edənlər vergi ödəyəcək



Natiq Cəfərli

## Natiq Cəfərli: "Bu, elektron ticarətin inkişafına əngəl olacaq"

**Artıq yerli və xarici internet saytlar üzərindən alış-veriş aparan vətəndaşlar da dövlətə vergi ödəməli olacaq. Çünki Vergilər Nazirliyi elektron ticarəti də vergiyə cəlb etməyə qərar verib. Vergilər naziri Fazil Məmmədov bu barədə təklifləri parlamentə təqdim edib.**

Vergilər Nazirliyinin mətbuat xidmətindən AzadlıqRadiosuna verilən məlumatda da deyilir ki, "Elektron ticarət haqqında" Qanunda dəyişikliklər haqqında sənəd hazırlanıb. Bu sənəddə elektron ticarətlə alış-veriş edənlərin Əlavə Dəyər Vergisi (ƏDV) ödəməsi nəzərdə tutulur. Nazirliyin mətbuat xidmətindən mexanizmlərin hələ hazır olmadığı, detalların yaxınlarda bilinəcəyi bildirilib: "Layihəyə iş və xidmətlərin elektron ticarət qaydasında təqdim edilməsinə, elektron qaydada təşkil olunan lotereyaların, digər yarış və müsabiqələrin keçirilməsinə görə ƏDV-nin alıcısının olduğu yerdə vergiyə cəlb edilməsinə dair müddəa daxil edilib. Buna əsasən, vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən, yerli bank, xarici bankın Azərbaycandakı filialları və ya poçt rabitəsinin milli operatoru tərəfindən qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı, alıcının vəsaiti hesabına tutulmalı və büdcəyə ödənilməlidir".

İzahatdan ada aydın olduğu kimi ödəniləcək ƏDV alıcının cibindən ödəniləcək. Bu mənada elektron ticarətə olan maraq da azalacaq. Ölkəmizdə elektron ticarətin tətbiqinin hələ geniş yayılmadığını nəzərə alsaq, bu sahəyə ƏDV-nin tətbiqi vəziyyəti daha da pisləşdirə bilər.

**İqtisadçı ekspert Natiq Cəfərli** də bu fikirdədir. Onun sözlərinə görə, Azərbaycanda elektron ticarətin vergiyə cəlb olunması vaxtından əvvəl atılan bir addımdır. Ekspertin sözlərinə görə, elektron ticarət ölkədə geniş şəkildə yayıldıqdan sonra bu addımın atılması daha doğru olardı: "Onlayn ticarət üzərinə vergi qoyulması müxtəlif ölkələrdə fərqli şəkildə tətbiq olunur və bu həmin ölkələrdə elektron ticarətin nə dərəcədə inkişaf etməsini göstərir, ona uyğun olaraq da müəyyən addımlar atılır. Azərbaycanda kifayət qədər kiçik həcmdə aparılan onlayn ticarət, xaricdən aparılan onlayn sifariş çox məhdud həcmdədir. Biz hələ xaricdəki səviyyəyə çatmaq üçün uzun zaman yol qət etməli idik. Şəffaflığın artırılması üçün onlayn ticarətin çox böyük önəmi var. Bütün dünya ölkələrində bunun artması üçün çalışırlar. Təşviq edirlər ki, onlayn ticarətin daha geniş yayılmasına nail olsunlar. Bu həm də onlayn satışdan əldə olunan vergilərin artmasına səbəb olur. Azərbaycanda kifayət qədər kiçik olan bir seqmentə indidən vergilərin tətbiq olunması marağı azaldacaq və bu sahənin inkişafına əngəl olacaq. Çünki insanların onlayn ticarətə üstünlük verməsinin əsas səbəbi burada mal və məhsulların daha ucuz başa gəlməsi idi. Əgər bu sahəyə də vergi tətbiq olunsa insanların bir marağı qalmayacaq".

**İqtisadçının fikrincə, əksinə hökumət onlayn ticarətin genişləndirilməsi üçün addımlar atmalı idi:** "Bu sahənin inkişafın şəffaflığın da artmasına xidmət edəcək, dolayısı ilə büdcə gəlirlərinin artmasına səbəb olacaqdı. Yeni vergilərin tətbiqi isə bu sahədə inkişafını ümumiyyətlə dayandıracaq və qonşu ölkələrdən xeyli dərəcədə geri düşməyimizə səbəb olacaq. Bu əslində Rusiyadan götürülmüş bir qaydadır. Təəssüf ki, Rusiyada tətbiq olunan qaydalar bir müddət sonra Azərbaycanda da tətbiq olunmağa başlayır. Rusiyada çox ciddi müzakirələrdən sonra onlayn ticarətə vergilərin tətbiq olunması, vergisiz hissəsinin 200 avroya qədər endirilməsi haqqında qanun qəbul olundu. Hökumət indi Rusiyada tətbiq olunan bu qaydaların eyninin Azərbaycanda tətbiq olunmasına çalışır. Amma onlayn ticarətin həcmi milyardlarla ölçülür və onun müəyyən faizinin vergiyə cəlb olunmasının bir məntiqi var. Azərbaycanda isə söhbət çox az bir dövriyyədən gedir. Orada vergi tətbiqi alıcıların elektron ticarətə marağını öldürəcək. Gələcəkdə onlayn ticarət ümumi ticarətin böyük bir hissəsini təşkil edəcək. Azərbaycanın bu sahədə geri qalması iqtisadiyyatın da geri qalması ilə nəticələnəcək. Amerikada artıq ticarətin 30 faizi elektron qaydada həyata keçirilir ki, bu da on milyardlarla dollar deməkdir. Türkiyədə də elektron ticarətdən geniş istifadə olunur, Gürcüstanda bu istiqamətdə addımlar atılır. Azərbaycanda isə bu cür addımın atılması sözügedən sahədə durğunluq yaradacaq".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 281 (6602) 17 dekabr 2016



## "Növbəti biabırçılıq" rubrikasında daha bir TV biabırçılığı

**Samir SARI**

**Qəzetçi həmkarımız, deputat Bəxtiyar Sadıqovun sağ əlinin baş, orta və şəhadət barmağının qabar olmasının səbəbini bilirsinizmi? Bilənlər bilir, bilməyənlər də bilsin ki, həmkarımızın qələm tutan barmaqları ölkə televiziyalarındakı biabırçılıqlardan yaza-yaza qabar olub. Bəxtiyar müəllim budu, neçə ildir yazır, amma bu sahədə vəziyyət düzəlmir.**

Əvvəllər biz də yazırdıq. Hələ o vaxtlar biabırçılıqlar az idi. Amma biz yazdıqca, onlar artdı. Axırda biz çıxış yolunu tapdıq və bunu xalqa da tövsiyə etdik. Sözümüzə qulaq asanlar da oldu, höcətlik edənlər də.

Əslində, təklif etdiyimiz çıxış yolu çox asan idi. Deyirdik, Azərbaycan televiziyalarına baxmayın, biabırçılıqları görüb əsəbiləşməyin.

Onda da deyirdilər, bə nəyə baxaq. "Kitab oxuyun". "Oxumalı kitab var ki?". "İnternetdən yaxşı filmlərə baxın". "Kömpüterdə baxmaq olmur". "Heç olmasa türk seriallarına baxın". "Eh, orda da eyzən ağlaşma-şivəndir, hamı bağırır".

İnsafən, "ağlaşma-şivən" və "kütləvi bağırışma" haqda deyilənlər düzdür. Doğrudan da serialların hamısında göz yaşları sel olub gedir. Ekran əsərinin yaradıcıları eşidiblər ki, insanlar duyğusal kadrları sevirlər, o üzdən millətin duyğularını, türkün sözü, sümürməklə məşğuldurlar.

İntəhası, son vədələr "bağırışma" xüsusunda yeni bir trend əmələ gəlib. İndi də pıçıltı ilə danışmaq dəbə minir. Bəli, normal tonda, adi səslə danışmaq yoxdur, ya bağırışırlar, ya da pıçıldaşırlar.

Qayıdaq öz ölkəmizin telekanallarının üstünə. Axır vaxtlar efirdəki rüsvayçılıqlar barədə Youtube və digər saytlarda "növbəti biabırçılıq" rubrikasında videolu xəbər yayılanda xəbər tuturuq. Daha oturub verilişləri izləməyə, monitorinq aparmağa ehtiyac yoxdur. Biabırçılıq olan kimi həvəskar fəallar həmin epizodları verilişin videoyazısından kəsir, rusdillilər demişkən, akkuratnı şəkildə qoyurlar saytlara.

Elə axırıncı dəfə 2010-cu ilin payızında baxdığım "Lider" telekanalındakı biabırçılıqdan o saytlar vasitəsilə xəbər tutdum.

Verilişin sahiblərinin məramı, məqsədi nədir, nə etmək, nəyə nail olmaq istəyirlər, bu heç. Aydın məsələdir ki, məqsəd reytinq qazanmaq, reklam almaq, pul-para əldə etmək kimi müqəddəs işlərdir.

Bəs o verilişə qatılanların bir-birinin zibil işlərini 9 milyonun görüb-eşidə biləcəyi bir yerdən bağırmaqda məqsədləri nədir? Nəyə nail olmaq istəyirlər?

Əvvəllər bu cür söz-söhbətlər bir kənd-kəsəkdə iki nəsl arasında olardı, başqa bir kimsənin bu qovğaya qarışmasına, hətta kənarda durub tamaşa etməsinə yol verməzdilər, çalışardılar biabırçılığın səs-küyü kənara yayılmasın, rüsvayçılığın üstü hermetik şəkildə bağlansın.

Amma indi bir-birini oğraşlıqda, namussuzluqda, şərəfsizlikdə ittiham edən şəxslər studiyada oturur, biri də verilişə telefonla qatılır, ekspertlərin və çəkiliş gedən zaldakı (eləcə də ekran başındakı) tamaşaçıların gözü qarşısında dalaşır, bağırışırlar. Söyüşlər, qarğışlar, nifrin-nalə bir-birinə qarışır.

Çox maraqlıdır, bu biabırçılıqdan sonra o qalmaqalın iştirakçıları kənd içinə necə çıxırlar, rayon mərkəzinə necə gedirlər? Hamı onları bir-birinə barmaqla göstərib xısıldaşmırmı, dallarınca şəbədə qoşmurlarmı, həyatları zəhərə dönmürmü?

Yəqin ki, bunların hamısı olur. Burası Finlandiya deyil, Azərbaycandır. Bu ölkədə bir nəslin başına gələn rüsvayçılıq azı 70 il danışılır - ta ki o tamaşanın bütün aktyorları ölüb gedir. Hələ o da ağzıgöyçəklərin ağzını yummur. Məsələn, 100 il əvvəl bizim kənddə bir ağsaqqal tut ağacından tut dərərkən yıxılıb ölmüşdü, onun nəvə-nəticələrinə hələ də "bir gilə tutun güdazına gedən filankəsin nəticəsi" deyirlər.

Ona görə də gərək o cür verilişlərə qatılan insanlar da ağıllı olsunlar. Onların bir-birinə qız alıb-verməsi və bu xüsusdakı məişət dava-dalaşları ictimai-siyasi əhəmiyyət kəsb eləmir, bunun ümumxalq referendumuna çıxarılmasına ehtiyac yoxdur.

O cür verilişlərlə reytinq, reklam, pul-para qazanmaq istəyənlərə isə qoy Bəxtiyar Sadıqov qənim olsun. Onsuz da MTRŞ-dən haray yoxdur, ANS bağlanandan sonra bu qurum işsiz qalıb.

# Manat dəyərsizləşməsini gözləyir, bəs hökumət?

## Ekspertlər bildirirlər ki, kəskin devalvasiya qaçılmazdır, önləyici tədbirlər də nəzərə çarpmır

**Milli valyuta olan manat ciddi təzyiq altındadır. Artıq gözlənilən FES toplantısı yekunlaşıb, dollarla bağlı faiz dərəcələri artıb, bunun da zəif valyutalardan olan manata təsiri böyükdür. Ölkədə artıq banklar dollar satmaqdan imtina ediblər, bir ay əvvəl başlanan proses, demək olar ki, bütün bankların dollar satmaması ilə yekunlaşıb.**



Banklar nəyi gözləyirlər? Kəskin devalvasiyaya gedilə cəkmi? Üstəlik, bu ilin avqust-sentyabr aylarında baş verən "qara bazar" əməliyyatından sonra Neft Fondunun valyuta çıxarması ilə vəziyyətin stabilləşməsi bu dəfə də belə olacağı ehtimalları yaradıb. Ekspertlər musavat.com-a açıqlamalarında məsələ ilə bağlı fikirlərini bölüşüblər.

**Ekspert Əkrəm Həsənov** bildirib ki, Neft Fondunun ilin sonuna qədər bazara valyuta çıxaracağı gözlənilmir: "Yeni Neft Fondu bu ilə nə qədər vəsait ayırmalı idisə, ayırıb. Nəzəri cəhətdən ola bilər. Heç kəs bunu Neft Fonduna qadağan etmir. Amma mən bu addımı gözləmirəm. Çünki ilin sonunda devalvasiyanın qaçılmaz olduğunu hər kəs bilir, büdcəni doldurmaq üçün vəsait lazımdır. Ola bilər ki, Neft Fondu hərraca cüzi məbləğ çıxarsın, amma avqust-sentyabrda olduğu kimi, ciddi məbləğləri gözləmirəm. Çıxarılsa, bunun yalnız dövlətə ziyanı var. Valyuta ehtiyatları azalacaq".

**Ekspertin sözlərinə görə, banklar dollar satmamaqla gözlənilən devalvasiyadan qazanmaq istəyirlər:** "Banklar gözləyirlər ki, manat buraxılsın. Artıq anons da verilib. İqtisadiyyatın yol xəritəsi elə 2017-ci ildən manatın tam sərbəstləşməsi ilə başlayacaq. Bunun da tərcüməsi belədir ki, manatı növbəti kəskin devalvasiya gözləyir. Buna görə də Neft Fondu ilə Mərkəzi Bank gözləyir ki, dolları sonra satıb daha çox gəlir əldə etsinlər. Banklar da əllərində olanı satmırlar, başa düşürlər ki, kurs qalxacaq. Hamı oturub kəskin devalvasiyanı gözləyir. Buna görə də ola bilər ki, ilin sonuna hansısa bir müəyyən ödənişlərə görə bazara müəyyən həcmdə dollar buraxılsın. İlin sonuna qədər növbəti kəskin devalvasiya olsa, təəccüblənmərəm".

**Ekspert Natiq Cəfərli** isə musavat.com-a açıqlamasında bildirib ki, kəskin devalvasiya gözləniləndir: "Bu yaxınlarda Banklara Assosiasiyanın rəhbəri Zakir Nuriyev maraqlı açıqlama verdi, dedi ki, banklarda dollar varmı ki, satsınlar? Banklarda çox ciddi problem yaşanır, təklif azdir, tələb həddindən artıq çoxdur. Son zamanlar hərraclara çıxarılan dolların həcmi kifayət qədər azalıb, ölkənin ehtiyacını ödəmir. Banklarda ümumiyyətlə ciddi problem yaranıb. Çünki ilin sonunda bir çox banklar xarici borclarını bağlamalıdır. Ona görə əldə etdikləri dolları satmaq istəmirlər. Həm ona görə ki, dollar azdır, həm xarici borcları bağlamaq istəyirlər. Üçüncü, daha ciddi məsələ gözləntilərlə bağlıdır. FES toplantısından sonra dolların bahalaşması fonunda Azərbaycan manatının dollara nisbətən daha kəskin ucuzlaşması baş verə bilər. Bu gözləntilər fonunda banklar da əllərindəki dolları satmaq istəmirlər".

**Ekspertin fikrincə, Neft Fondunun bazara dollar çıxarması gözlənilən deyil:** "Bu il gözlənilən deyil. Çünki Neft Fondu öz resurslarını bitirib. Gələn ilin əvvəlində belə bir əməliyyat ola bilər. Amma sentyabr ayındakı addım göstərdi ki, bu, effektsiz əməliyyatdır. Cəmi bir neçə həftə təsiri olur, sonra yenidən bazarda ajiotaj yaranır. Ona görə də bu, problemin həlli deyil. Gələn ilin əvvəlində buna bənzər addımlar atıla bilər. Amma bunun da bazarı sakitləşdirməkdən başqa ciddi bir effekti olmayacaq".

❑ **Röya RƏFİYEVA**

# Avtomobilini yandıran Qarabağ qazisi ilə bağlı yeni məlumat

## Rey Kərimoğlu: "Biz nömrəsiz, sənədsiz avtomobil istifadə edən Qarabağ əlillərinə bunun doğru olmadığını izah edirik"

**Qarabağ Qazilər Birliyi Qaxda polisə etiraz edərək şəxsi avtomobilini yandıran 1-ci qrup Qarabağ müharibəsi əlili Bəxtiyar Bayramovla bağlı Daxili İşlər Nazirliyinə müraciət edəcəklər. Bu barədə "Yeni Müsavat"a birliyin mətbuat xidmətinin rəhbəri Rey Kərimoğlu məlumat verib. O bildirib ki, B.Bayramovun probleminin həllinə çalışırlar:**

"Bəxtiyar Bayramov bizim cəmiyyətimizin üzvü olmasa da, Qarabağ uğrunda döyüşlərdə iştirak etmiş adamdır, 4 uşaq atasıdır. Kimsə deyirsə, Bəxtiyar Bayramov Qarabağ əlili deyil, bu, tamamilə yalandır. Biz bir hadisə olduğu zaman onu araşdırıb, sonra yayırıq. Sabah da daxili işlər nazirinə müraciət ünvanlayacağıq, görüş istəyəcəyik. Problem varsa, bunu həll etmək lazımdır. Biz baş verənlərdən çox narahatıq. Hər hansı bir hadisə olduğu zaman ortada qalırıq. Bu, həm əlilin səhhətinə pis təsir edir, həm də polislə əlil arasında qarşıdurma yaranır. Belə hallar isə bizim prinsiplərimizə ziddir. Çünki biz, dövlətə, dövlətçiliyə bağlı insanlarıq. Son zamanlar sanki qəsdən polislərlə qazilər arasında problemlər yaradılır. Bütün bunlar barəsində şikayətimizi yuxarıda qeyd etdiyimiz kimi Daxili İşlər Nazirliyinin rəhbərliyinə bildirəcəyik".

**R.Kərimoğlu bildirib ki, onlar da öz üzərilərinə düşən işi görürlər:** "Biz QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Qarabağ əlillərinin maarifləndirilməsi istiqamətində layihələr də həyata keçirmişik. Beynəlxalq Mətbuat Mərkəzində bu il 4 konfrans təşkil etmişik. Biz bu konfranslara nömrəsiz avtomobil istifadə edən Qarabağ əlillərini dəvət edib, onlara bunun doğru olmadığını izah edirdik. Görünür ki, bu kimi tədbirlər də azlıq edir. Ona görə də Daxili İşlər Nazirliyinin rəhbərliyinə təklif edəcəyik ki, birgə fəaliyyət nəticəsində, bu kimi problemlərin həllinə çalışaq".

**"Vətən Müharibəsi Əlilləri" birliyinin sədri Firudin Məmmədov** isə bildirib ki, Qax rayon DYP idarəsinin rəisi Ayaz Məmmədov B.Bayramovla görüşüb söhbət edib, ondan hadisənin səbəbini soruşub: "Bəxtiyar da yol polisinin məhkəmə qərarına məhəl qoymamasından narazı olduğunu və bu səbəbdən də əsəbiləşərək avtomobilini yandırdığını deyib. Polis rəisi qazinin yanında onu bu işə vadar



Rey Kərimoğlu

edənləri də tənbeh edib. O, Qarabağ qazisini sakitləşdirərək ona qarşı ədalətli davranılacağını deyib".

**Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi Kamran Əliyev** də Qax rayon sakini, Qarabağ qazisi Bəxtiyar Bayramovun öz avtomobilini yandıraraq, yol polisini ittiham etməsinə münasibət bildirib.

**K.Əliyev ölkə.az-a açıqlamasında bildirib ki, sözügedən şəxs avtomobili sürücülük vəsiqəsi olmadan idarə etdiyinə görə cərimə olunub:** "Nə avtomobili, nə də sürücülük hüququ onun əlindən alınmayıb. Çünki sürücülük vəsiqəsi yoxdur. Bu ilin yayında nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan yol-nəqliyyat hadisəsi törətdiyinə görə Qax Rayon Məhkəməsi tərəfindən 400 manat cərimə olunması barədə qərar çıxarılıb. Cəriməni vaxtında ödəmədiyinə görə həmin məbləğin üzərinə də dəbbə gəlib. Dəbbə pulu ilə birlikdə 640 manat məbləğ təşkil edib. Vətəndaşın hansı səbəbdən avtomobilini yandırdığını deyə bilmərəm. Bizim Qarabağ müharibəsi iştirakçılarına, veteranlarına, xüsusilə də əlillərə böyük hörmətimiz var. Amma Qarabağ əlili də düzgün hərəkət etməyib. Yol kənarında avtomobilə od vurmaqla digər hərəkət iştirakçılarının da həyatını təhlükədə qoyub. O avtomobil yanan vaxt istənilən an partlayışa səbəb ola bilərdi. Onun partlaması nəticəsində digər insanlar da xəsarət ala bilərdilər. Məsələ burasındadır ki, həmin şəxs məhkəmənin qərarıyla sürücülük hüququ olmadığına görə cərimə olunub. Məhkəmənin qərarı onda icra olunur ki, rəsmi qaydada həmin qərar yol polisinə daxil olsun. Bunu sivil formada da həll etmək olardı. Sadəcə, məhkəmənin qərarını gözləmək lazım idi".

Onu da qeyd edək ki, Bəxtiyar Bayramov törətdiyi əməldən peşman olduğunu da bildirib. Belə ki, B.Bayramov "Report"a bildirib ki, cəriməni ödəyə bilmədiyimə görə başqa çıxış yolu görməyib:

"Əsəbiləşərək şəxsi avtomobilimi yandırdım. Hazırda peşmanam, avtomobilsiz qalmışam. Qax rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən problemlərim aradan qaldırıldı. Təşəkkür edirəm. Heç bir şikayətim yoxdur", - deyə Qarabağ qazisi vurğulayıb.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 281 (6602) 17 dekabr 2016

# Xəzərdə baş verən qəzanın səbəbi: Məsuliyyətsizlik, yoxsa təxribat?

**Xəbər verdiyimiz kimi, dekabrın 15-də “Azneft” İB-nin N.Nərimanov adına Neft və Qaz Çıxarma İdarəsinin 3 saylı Neft Yığım Məntəqəsinin sağ və sol hissəsində yerləşən estakadanın uzunluğu təqribən 150 metr olan hissəsini dənizə uçub. Estakadanın həmin hissəsi özü ilə birlikdə ona bitişik olan meydançanı və üzərindəki yaşayış köşkünü də uçurub. Hadisə nəticəsində itkin düşən 10 nəfərdən 8-nin axtarışları davam etdirilir. Zaman keçdikcə, itkin düşən neftçilərin ailələrinin onların sağ qalacağına ümidi də azalır.**

Axtarışlar nəticəsində faciə baş verən estakadanın yeni görüntüləri ortaya çıxıb. Dalğıclar estakadanın suya düşdüyü hissədə axtarışlar aparıb və köşkü tapıb. Ancaq köşkün içərisində bir nəfər də olsun neftçinin meyiti tapılmayıb. Güclü küləyin neftçilərin meyitlərinin dənizin içərilərinə apardığı ehtimal edilir.

Xəzərdə itkin düşən neftçilərin axtarış və xilasetmə işlərinə BP şirkətinin 3 gəmisi də cəlb edilib.

Ötən gün fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov və SOCAR prezidenti Rövnəq Abdullayev hadisə yerinə baş çəkiblər.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, onlar hadisə baş vermiş əraziyə baxış keçirərək itkin düşmüş neftçilərin axtarışında iştirak edən müvafiq qurumların rəhbərləri ilə müzakirələr keçiriblər.

**“Estakadaların təhlükəsizliyi hər il yoxlanmalıdır”**

Hadisənin səbəblərinə gəlincə, bunun təxribat olması ehtimalı səslənsə də ekspertlər daha çox köhnə estakadanın dayanıqlığını itirdiyi faktının üzərində dayanır.

**Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** “Yeni Müsavat”a açıqlamasında bildirib ki, adi avtomobil ildə bir dəfə texniki baxışdan keçirsə, 70-ci illərdə tikilən estakada da hər il yoxlanmalı idi: “Fakt budur ki, birdən-birə 150 metrlik estakada hər hansı qasırğa nəticəsində, güclü dalğaya tab gətirməyərək qırılırsa, dənizə düşürsə, digər tərəfdən analoji hadisə 2015-cü ildə də olubsa, deməli, təhlükəsizlik məsələsi ilə bağlı problem var. O zaman da 60 metrlik bir estakada uçub dənizə düşmüşdü. Hər dəfə bu hadisə hasilatın baş verdiyi ərazidə olur. Deməli, həmin qurğular, meydançalar, estakada yenilənməlidir. Və ya bunlara mütəmadi baxışlar keçirilməlidir, təhlükəsizliyi, dayanıqlığı yoxlanılmalıdır Ömrünü başa vuran qurğular yenilənməlidir. Əgər təhlükə varsa, orada işlər dayandırılmalıdır. Ancaq ümumilikdə neft sənayesi iqtisadiyyatın elə bir sahəsidir ki, burada 24 saat iş davam etməlidir. Orada hər dəqiqə işin dayandırılması mümkün deyil. Əgər orada küləyin sürətinə görə hər hansı məhdudiyyət qoyulacaqsa, 40 metr/saniyə küləkdə iş dayandırılacaqsa, hasilat mümkün olmaz. Amerikada saniyədə 100-120 metr sürətlə qasırğa olur, buradakı külək onun yanında nədir ki? İkinci bir tərəfdən, həmin estakada qurğuları texniki baxışdan keçirilməlidir, onun küləyə, dalğalara davamlılığı yoxlanmalıdır. Adi avtomobil ildə bir dəfə texniki baxışdan keçir. Belə bir yoxlama dənizdəki estakadada olmamalıdırmı? Bu hadisədə təxribat ehtimalını mən istisna edirəm, çünki belə olsaydı, partlama əlamətləri olardı. Lakin belə bir fakt yoxdur”.



**İlham Şaban:** “Neft sənayesində küləyə görə iş dayandırılacaqsa, hasilat mümkün olmaz”



**Qüdrət Həsənquliyev:** “Ola bilər ki, ayrı-ayrı dövlətlər tərəfindən estakadalar zədələnsin və onların aşması üçün şərait yaradılsın”

**“Təxribat ola bilər”**

**Deputat Qüdrət Həsənquliyev** isə Milli Məclisin ötən gün keçirilən iclasında bu hadisənin təxribat ola biləcəyi iddiasını irəli sürüb: “Ötən gün Xəzər dənizində bizim neftçilər itkin düşdü. Bu, bir il ərzində ikinci hadisədir. Biz qonşu dövlətlərlə əhatə olunmuşuq. Onların bəziləri Azərbaycanın müstəqil siyasəti ilə razı deyillər. Bu baxımdan müəyyən təxribatlar da ola bilər. Ola bilər ki, ayrı-ayrı dövlətlər tərəfindən estakadalar zədələnsin və onların aşması üçün şərait yaradılsın”.

**Deputat onu da bildirib ki, bu hadisədə xarici təxribat varsa, bu da aşkar olunmalıdır. Faciəyə görə məsuliyyət daşıyan insanlar tapılıb müəyyənləşdirilməlidir:** “Buna görə də, parlament tərəfindən Baş Prokurorluğa xüsusi müraciət etməliyik ki, belə halların baş verməməsi üçün tədbirlər görülsün. Mən ölənlərin ailələrinə dərin hüznlə baş sağlığı verirəm. Hesab edirəm ki, parlament də bu məsələdə öz sözünü deməlidir”.

**Sığorta pulu ödəniləcək...**

Qeyd edək ki, itkin düşmüş neftçilərin “istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta”sı “PAŞA Həyat Sığorta” şirkəti tərəfindən həyata keçirilib.

Bu barədə mətbuata məlumat verən “PAŞA Həyat”ın mətbuat katibi Elnur Hüseynquliyev bildirib ki, müvafiq qurumlar tərəfindən lazımı sənədlər təqdim edildikdən sonra onların ailələrinə sığorta ödənişləri ediləcək: “Hazırda şirkətdə yaradılmış xüsusi qrup tərəfindən qəzada həlak olan neftçilərin siyahısı və onların ailə tərkibləri dəqiqləşdirilir. Ödənişlərin verilməsində heç bir problem olmayacaq. Ödənişlər qanunvericiliyə müvafiq qaydada tam vaxtında veriləcək”.

❑ **Nərgiz LİFTİYEVA**

# YAP-dan Əli Əhmədovla bağlı təkzib

## Hüseyn Paşayev: “Əli Əhmədov YAP-ın yaradılması təşəbbüsü ilə çıxış etmiş məşhur “91-lər”dən biridir”



Əli Əhmədov

**“Yeni Müsavat” qəzetinin 16 dekabr 2017-ci il tarixli sayında “Dağılan tifaq-müxalifət hökuməti və parlamenti necə ələ keçirdi?” sərlövhəli yazıda vaxtı ilə tanınmış müxalifət təşkilatlarında olmuş, YAP yarandıqdan və ya hakimiyyətə gəldikdən sonra bu partiyaya keçmiş, hazırda yüksək vəzifələrdə, parlamentdə olan bir sıra məşhur insanların adı qeyd edilib. Bu sırada YAP-ın sədr müavini-icra katibi, baş nazirin müavini Əli Əhmədovun da adı yer alıb. Əli Əhmədovun 1992-ci ildə AMİP-də olduğu, sonradan YAP-a keçdiyi qeyd edilib.**

Əli Əhmədovun vaxtilə AMİP-də olduğu barədə yazılanların həqiqəti əks etdirmədiyi barədə **YAP-ın mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev** təkzib verib. Hüseyn Paşayevin redaksiyamıza ünvanladığı təkzib məktubunda qeyd edilir ki, bəzi kütləvi informasiya vasitələri yüksək dövləti vəzifə daşıyan, ölkənin siyasi həyatında önəmli yeri və mövqeyi olan ayrı-ayrı nüfuzlu şəxslər haqda həqiqət olmayan yazılar yazırlar. Bu tip yazılardan sonuncusu “Yeni Müsavat” qəzetinin 16 dekabr 2017-ci il tarixli sayında özünə yer tapa bilib: “Birbaşa qeyd etmək istəyirəm ki, qəzetdə Əli Əhmədovun ünvanına edilən qeydlər həqiqəti əks etdirmir. Məqsədi-məramı bilinməyən, informasiya xarakteri daşımayan, həqiqətin əks olunmadığı belə bir yazını dərc etməsini, özünü çoxtirajlı hesab edən bir qəzetin material qıtlığı ilə üzləşməsi kimi izah etmək olarmı? Heç kim düşünməzdi ki, bu belədir.

**Adıçəkilən qəzetdə “Dağılan tifaq-müxalifət hökuməti və parlamenti necə ələ keçirdi?” sərlövhəli məqalədə Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP-ın sədr müavini-İcra katibi Əli Əhmədovun barəsində cəmiyyətdə yanlış fikir formalaşdırmağa cəhdi olmuşdur.** Bununla əlaqədar bir daha xatırlatmağı lüzum bilirəm. Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov YAP-ın yaradılması təşəbbüsü ilə çıxış etmiş məşhur “91-lər”dən biridir. Əli Əhmədov Bakı Dövlət Universitetinin dossenti olaraq Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə partiya yaradılması təşəbbüsünü öz imzası ilə təsdiq etmiş, həyatını təhlükə altına qoyaraq, bu tarixi hərəkata qoşulmuşdur. Nəhayət, Əli Əhmədov Yeni Azərbaycan Partiyasının yaradılması və partiya quruculuğu proseslərində ən yaxından iştirak etmiş bir şəxs olub".

❑ **E.SEYİDAĞA**

# SOCAR qazın qiymətinin 18 qəpik olmasını istəyib - rəsmi açıqlama

**“Son günlər bəzi kütləvi informasiya vasitələrində SOCAR-ın prezidenti Rövnəq Abdullayevin adından guya Tarif Şurasına təbii qazın qiymətinin bir kubmetri üçün 13 qəpik səviyyəsində müəyyənləşdirilməsi ilə bağlı müraciət edildiyi, buna baxmayaraq Şura tərəfindən fərqli, daha yüksək tariflərin təsdiq edilməsi ilə əlaqədar dərc olunmuş məlumatlar həqiqəti əks etdirmir”.**

Musavat.com SOCAR-ın saytına istinadən bildirir ki, bu sözlər qurumun mətbuat xidmətinin yaydığı rəsmi açıqlamadandır. Açıqlamada deyilir ki, SOCAR-ın prezidenti tərəfindən bu və buna oxşar heç bir müsahibə və ya bəyanat verilməyib:

“Bildiririk ki, ölkəmizdə satılan təbii qazın müəyyən hissəsi SOCAR tərəfindən istehsal olunur, digər hissəsi isə Hasilatın Pay Bölgüsü Sazişlərinə uyğun olaraq əməliyyat şirkətlərindən ABŞ dolları ilə satın alınır”.

**Açıqlamada həmçinin bildirilir ki, son illər istehsal xərclərinin artması və manatın məzənnəsindəki dəyişmələr nəticəsində təbii qazın maya dəyəri onun ölkə daxilində tənzimlənən qiymətlərindən yüksək olmuşdur ki, SOCAR tərəfindən bu haqda ictimaiyyətə məlumat verilmişdir:** “Aydındır ki, belə bir şəraitdə təbii qaz təchizatında dayanıqlığı və keyfiyyətli xidmətin davamlılığını təmin etmək mümkün deyildir. Qeyd olunanlar nəzərə alınaraq, perspektiv inkişafın təmin olunması məqsədilə SOCAR tərəfindən təbii qaz tarifinin əhali üzrə diferensiasiya olmadan və "Azərenerji" ASC də daxil olmaqla bütün istehlakçılar üzrə bir kubmetr üçün 18 qəpik müəyyənləşdirilməsi ilə bağlı Tarif Şurasına müraciət edilib. Tarif Şurası tərəfindən əhalinin böyük hissəsinin qiymət artımından qorunması və elektrik enerjisi üzrə kəskin qiymət artımının qarşısının alınması məqsədilə diferensial tariflərin tətbiqinə qərar verilib. Belə ki, təbii qazın pərakəndə satış tarifi əhali üzrə illik istehlak həcmi 1500 kubmetrədək olan istehlakçılar üçün dəyişdirilməyərək bir kubmetr üçün mövcud 10 qəpik, elektrik enerjisi sərfiyyatı aylıq 250 kilovat-saatadək olan istehlakçılar üçün mövcud 7 qəpik səviyyəsində saxlanılıb. SOCAR-ın prezidenti adından belə əsassız informasiyalar yayan KİV-ləri “Kütləvi İnformasiya Vasitələri haqqında” qanunun müddəalarına riayət etməyə çağırırıq".

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 281 (6602) 17 dekabr 2016

# İranla İsrailin gizli neft alveri - milyardlarla neft pulları hardadı?

## Göyərtəsində 18 milyard avro pul olan təyyarə gecəyarı Bakı aeroportuna enir; hava gəmisi Frankfurtdan qalxmışdı...

**Misal üçün, şah dövründə İran Təl-Əvivlə münasibətlərini "Tam məxfi!" qrifi ilə işarələmişdi. Türkiyə vasitəsi ilə İsrailə gedən Tehran nümayəndələrinin yaşıl rəngli diplomatik pasportuna müvafiq möhürlər adətən heç vaxt basılmırdı. Görüntü yaradılırdı ki, bəs guya bu diplomatlar Türkiyədə Aya Sofya kilsəsini ziyarət ediblər, Anıt qəbrin üstünə tər çiçəklərdən hörülmüş çələng qoyublar və sair və ilaxır.**

İran-İsrail münasibətlərində gizli, məxfi nüanslar, detallar, layihələr axtarsan, bir deyil, iki deyil. Çoxdu, həm də lap çoxdu...

Ötən əsrin 70-ci illərində, Təl-Əvivdə öz diplomatik missiyasını yerinə yetirən 6 iranlının pasportlarını aç, bax. Görəcəksən, bu pasportları İsrail vizası deyil, İsveçrə möhürləri bəzəyir. Daha bir vacib informasiya - İran Xarici İşlər Nazirliyi o vaxtlar məktublaşmada İsrail kəlməsi əvəzinə adətən "Bern-2" məxfi kodunu işlədib iz azdırarmış.

İsraillə-İran arasındakı gizlinlər barəsində saatlarla durmadan danışmaq mümkün olsa da, biz indi bu sirlərin ancaq biri üzərindən ağır pərdəni götürmək istəyirik. Həəə, bu günkü mövzumuz, 50-ci illərin son rübünə aiddi. O vaxtlar İranla İsrail çox böyük, indiki Bakı-Ceyhan layihəsini xatırladan son dərəcə gəlirli bir proje hazırlayıb onu gizlicə həyata keçirirlər. Eylat-Aşkelon neft boru kəməri vasitəsi ilə Qırmızı, Aralıq dənizlərinin sahillərini birləşdirib, girişirlər bu xətt boyu neft nəqlinə.

Vur-tut 100 günə *(50-ci illərin sonunda)* inşa edilmiş bu boru kəməri vasitəsi ilə Şah rejimi ilə İsrail artıq 1970-ci ildə dünya bazarına 10 milyon neft ixrac edirdi. Süveyş kanalının o vaxt gəmiçilik üçün bağlı olması, proje müəlliflərinin bank hesablarını artırır, ciblərini şişdirir. İran nefti, özünə yeni alternativ marşrut qazanaraq başlayır digər neft ixracatçılarını sıxışdırmağa. İştaha diş altındadır - ağlasığmaz qazanc, tezliklə hər iki tərəfi əlavə projelərə imza atdırır. Konsorsium iştirakçıları, Aralıq dənizi sahillərindəki neftayırma zavodlarını alıb gəlirlərini iki qata çıxarırlar. Vaxtı ilə məşhur kəşfiyyatçı Mehdi Hüseynzadənin partlatdığı Triyest neftayırma müəssisəsi də məhz o zaman satın alınıb İsraillə İranın ümumi maraqlarına xidmət etməyə başlayır. İşə Fələstin terrorçuları qarışınca, məsələ lap şişir. Konsorsium, həyatında ilk dəfə ciddi müqavimətlə üzləşib çaşbaş qalır. Növbəti partlayış, konsorsiumun aldığı digər neftayırma zavodunda - Hollandiyanın Roterdam şəhərində baş verdikdə, əsəblər tam gərilir.

İşə İsrail kəşfiyyatı MOSSAD qarışır. Tezliklə bəlli olur ki, partlayışların arxasında Şərqi Almaniya kəşfiyyat qurumu olan "Ştazi" dayanır. Partlayışların icraçıları - Fələstin terrorçuları, ideya və informasiya mənbəyi isə İran solçularının "Tudə" partiyasıdır.

***

Əlcəzair terrorçusu Məhəmməd Budia partlayıcı maddələrdən, deyilənə görə, gözüyumulu baş çıxarırmış. Maraqlarının uzun siyahısında birinci yerdə terrormuş, ikinci yerdə teatr sənəti. 1962-ci ildə Əlcəzair müstəqillik qazandıqdan dərhal sonra o, Əlcəzair Milli Dram Teatrının direktoru vəzifəsinə təyin olunsa da, bu vəzifəyə tab gətirməyib, tezliklə yenidən terrora qayıdır. Terror aktlarını adətən öz qadın sevgililərinin əliylə görən bu məşhur konspiratora, 70-ci illərin əvvəlində İran solçuları zəng edib görüş təyin edirlər.











Əyninə uzun boz plaş, başlarına, ətrafı gen zolaqlı şlyapa qoymuş İran "Tudə" partiyası rəhbərləri, Paris metrostansiyalarının birində Məhəmməd Budianı qəfil haqlamağa müyəssər olurlar. Qulağına məxfi parolu pıçıldayıb terrorçunu möhkəmcə diksindirirlər. Şərqi Almaniya kəşfiyyatı "Ştazi"nin konsorsium barəsində topladığı sənədləri Məhəmməd Budiaya ötürüb deyirlər:

- Konsorsiumun İrandan qeydiyyatsız milyon tonlarla neft götürüb dünya bazarına çıxarması hələ azdı. O həm də İsrailin energetik təhlükəsizliyinə qarantdı. Triestdən, Rotterdamdan İsrailə neft emalı məhsulları daşıyır. Konsorsium dünya neft daşımaçılığına nəzarət edərək neft qiymətlərini nəzarətdə saxlamağa müvəffəq olub. Ən gizli informasiya - Aralıq dənizi hövzəsində əksər neftayırma fabriklərini almış bu şirkət, belə getsə durmaq nədi bilməyəcək. Görün, əlinizdən nə gəlir.

Budia, işarəni havadaca tutub girişir işə. Əvvəlcə Rotterdamdakı neftayırma fabrikini göyə sovurur, az sonra Triyesdəkini (avqust 1972). Operativ əməliyyat zamanı "Ştazi" ona bu ünvanı vaxtı ilə havaya sovurmuş Mehdi Hüseynzadənin təcrübəsindən istifadə etməyi məsləhət görür. Əməliyyatın sxemi, bütün detalları təxminən eyni imiş. Əməliyyata cəlb edilənlər arasında Fətəlixan Düdənginskinin qatili Mikayıl İsmayılov da vardı. Mehdi Hüseynzadə ilə birgə müxtəlif partlayışlarda iştirak etmiş bu şəxsin italyanca bilməyi, üstəlik arvadının italiyalı olmağı və bir sıra digər məxfi cəhətlər, cari əməliyyata elə əribaşdan uğurlar və tam məxfilik vəd edirdi.

Konsorsiumun bölgədəki iqtisadi maraqlarına ciddi zərbə vurmuş bu partlayışları tədqiq edərkən MOSSAD-çılar tezliklə Parisin "Etual" metrosunda Məhəmməd Budianı aşkarlayıb nəzarətə götürürlər. 28 iyun 1973-cü il tarixində o, öz minik avtomobilini yoxlamadan mühərriki işə salır.

Bu vaxt güclü partlayış teatr həvəskarını param-parça edir.

***

1975-ci ildə isə vəziyyət tam dəyişir - yeni Amerika prezidenti Cimmi Karter qərara gəlir ki, bəs bu boru xətti bölgədəki strateji balansı İranla İsrailin xeyrinə dəyişib Amerika maraqlarına ciddi ziyan vurur. Karter, Misir prezidenti Ənvər Sədatla, habelə digər ərəb liderləri ilə danışıqlara başlayıb, tezliklə Süveyş kanalını gəmiçilik üçün açmağa müvəffəq olur. Neft ixracının boğazını qapamış əngəl aradan qalxır, Kemp-Devid danışıqları sayəsində Misir, nəhayət, İsraili tanıyır. Nəticədə Aşkelon-Eylat kəməri öz rentabelliyini itirib, bütün öz gizli sənədləri ilə birgə arxivə göndərilir. Sonrakı İran İslam inqilabı, projenin tabutuna sonuncu mismarı vurub, Tehranla Təl-Əvivi əməlli-başlı küsdürür. İran bu proje vasitəsi ilə aldanıldığını, talan olunduğunu elan edərək İsveçrədəki beynəlxalq məhkəməyə müraciət etməyə məcbur qalır. Məhkəmə dartışmaları acı bağırsaq kimi illərlə uzanaraq 2016-cı ilin avqustunda İranın kiçik qələbəsi ilə nəticələnir. İsveçrə Federal Tribunalı - ölkənin ali məhkəmə qurumu, qərara gəlir ki, İsrail hökuməti Aşkelon-Eylat neft kəmərinə görə Tehrana 1.1 milyard təzminat ödəməli, habelə məhkəmə xərclərinə görə əlavə 400 milyon dollar pul verməlidir.

***

**Bundan sonra Aşkelon-Eylat boru-kəmər şirkətinin *(İsraildə o EAPC abbreviatura ilə adlanır)* sədri Yosi Paled mətbuata açıqlama verərək mövzu ətrafındakı məxfiliyi ilk dəfə pozmağa müvəffəq olub.**

- Vaxtı ilə İranla birgə qurduğumuz bu şirkət artıq milliləşib. Şirkət barədə əlavə nəsə söyləməyə haqqım çatmır. Hərbi senzura barəmizdəki bütün informasiyanı yasaqlayıb deyə, mövzuya əlavə şərhim az olacaq. İki il əvvəl boru kəmərində sızıntı olub, ətraf mühitə ciddi ziyan dəyib. Ancaq, şirkətin "Tam məxfi!" qrifi altında fəaliyyəti onu İsraildəki ekoloji tələblərə riayət etməmək imkanını verir. Şirkətin məxfiliyi barədə qərar 50 il əvvəl qəbul edilsə də, məxfilik indi də ömrünü sürməkdədir.

***- İran, inqilabdan sonra şirkətə qarşı beynəlxalq məhkəmələrdə üç iddia qaldırıb. İddia edir ki, şirkət guya milyardlarla pul mənimsəyib, İranın zəngin neft yataqlarını uzun illər talayıb soyub. Milləşdirilən pay, kimindi - İranın, yoxsa İsrailin?***

- Bağışlayın... Əlavə sizə heç nə deyə bilmərəm.

Beləliklə, konsorsiumla bağlı bütün sənədlər İsraildə necə deyərlər "yeddi möhür" arxasında gizlədilir. İnformasiya məxfi və qapalıdır.

***

İranın başı, bu cür məxfi neft anlaşmaları ilə əlaqədar birinci dəfə deyil ki, ağrıyır. 2012-ci ildən atom silahı istehsalına görə beynəlxalq sanksiyalara məruz qalan İran, banklararası SWIFT pulköçürmə sistemindən xaric olunub. O, indi-indi bu sistemə qayıtmaq şansını qazansa da, real vəziyyət hələ bir o qədər də aydın deyil. SWIFT-dən kənarda qalan İranın, neft alverində nağd pula keçdiyini söyləyənlər, adətən bu vaxt dünya aeroportlarında saxlanılan milyardlarla dollar pula işarə vurarlar. O pulun yüz milyarddan çoxu Moskvanın Şeremetyev aeroportunda saxlanılır, yerdə qalanı İstanbulda saxlanılır və...

Və Bakı hava limanında. 6 fevral 2012-ci il tarixində gecə yarısı Bakının Heydər Əliyev adına beynəlxalq aeroportuna qəribə bir yük təyyarəsi enir. Görünür, elə-belə enmir. Hansısa bir razılaşma, sövdələşmə çərçivəsində Bakıya gəlib burda öz sahiblərini gözləyir. Yükün sənədləri ilə elə ilk tanışlıq bəs edir ki, adamın gözləri çıxsın kəlləsinə. Sənədlərdə göstərilir ki, şah xəzinələrinə layiq bu dəyərli yük Almaniyanın "Deutsche Bank"ından Azərbaycana göndərilibmiş. Tərkibində 168 palet - yəni xüsusi qutu olan bu təyyarə Frankfurt-Mayn şəhərindəki aeroportdan uçub gəlibmiş paytaxtımıza. Paletlərin hər biri elə bil qızıldanmış - hər birinin içində 100 milyon avro pul varmış. 168 paletdəki həmin pulu bir yerə yığsaq, ortada ağlasığmaz bir məbləğ - 18 milyard avro pul kütləsi yaranar.

Qısası, İran şah dövründə gizli neft alveriylə bir cür məşğul olub, indi bir başqa cür. Bəziləri iddia edir ki, İranla Vaşinqton arasındakı gizli neft alveri heç vaxt, hətta inqilabdan sonra da bir gün olsun belə kəsilməyib. "İran-Kontros" əməliyyatı belələrindən ancaq biridir - bu əməliyyata görə İran, Vaşinqtona neft satır, əvəzində silah alırdı. Deyilənə görə hələ 80-ci illərdə Federal Rezerv Sisteminin iki məxfi əməkdaşı dollar çap edən dəzgahla birgə Tehrana gələrək İranın nağd pula tələbatını ödəməyə başlayıb. Bir müddət həmin çap makinası İranda sürətlə işləyib. İranın atom projesi ortaya girincə əvvəlki qaydalar pozulub. Vaşinqton öz əməkdaşlarına əmr verib ki, bəs pul makinasını sökün, klişeləri məhv edin, özünüz də geri qayıdın. Küllü miqdarda çap edilmiş pul kütləsi isə ortada qalır. Sərn əmi deyir ki, bəs bu pulların sıra nömrələri bəllidir. Cürətiniz varsa bu pul kütləsini dövriyyəyə buraxın. Hamısını müsadirə edəcəyik... Sonradan İran, 6 qarant dövlətin gizli rəyi ilə həmin pulları dollardan avroya konvertasiya etməyi bacarır. Ancaq həmin nəhəng məbləği bank öz hesablarına otuzdura bilmir. Nəticədə pullar indiyəcən, vizasız sərnişin kimi, müxtəlif məkanlarda, o cümlədən Bakı aeroportunun tranzit zonasında ilişib qalır.

Unutmayın, Eldar Mahmudov çetesinin bu pulları qərət etməsi bir vaxt mətbuatımızın əsas mövzularından biri olub.

***

Rusiya mətbuatının yazdığına görə, həmin pulları almaq şansı indi ən çox həmyerlimiz Əli İsayevə məxsusdu. O, azərbaycanlıdır. Bakıdandı. Sovet vaxtları Azərbaycan SSR DTK-da şöbə müdiri vəzifəsində çalışıb. Kiçik detala fikir verin - İran hökuməti bu şəxsin adına xüsusi etibarnamə verməkdən belə çəkinməyib. O, çox zəkalı birisidir - 20 dildə danışa bilir. 1953-cü il doğumlu bu şəxs 195371015882 saylı Rusiya pasportunun daşıyıcısı, "İnternational İnvestmend Danato Swiss AG" maliyyə şirkətinin sahibidir. Rusiyada həm də "Respekt 2000" tikinti şirkətinin bossu kimi də tanınır.

Lakin ortada bir fakt var - İsveçrədə fəaliyyət göstərən bu şirkətin saytına tıklayınca ekranda "Şiri-Xurşid" simvolu peyda olur. Şiri-Xurşid isə, şah dövrünün simvolu kimi indi İranda yasaqdı. Yaxşı, necə olub indiki islam rejimi bu şah tərəfdarına - Əli İsayevə öz var-dövlətini etibar etməkdən çəkinməyib?

Bu, ümumiyyətlə mümkündürmü müasir İranda?

Əlbəttə yox.

Deməli, bu pulların tarixçəsi çox qədimə, hələ şah dövrlərinə gedib orda zülmətə qərq olur.

Ola bilsin, bu pullar şah rejimi ilə İsrailin vahid qazancı, bayaq adını çəkdiyimiz o məxfi konsorsiumun gizli xəzinəsidir. Bu səbəbdən, etibarnaməsi şah pərəstişkarı Əli İsayevə tapşırılıb.

**Bütün hallarda, belə çıxır ki, İsraillə İranın arasındakı bu məxfi söhbətdə şah tərəfdarları indi də söz, ixtiyar sahibidirlər.**

**❑ Həmid HERSÇİ**

YENİ MÜSAVAT
N 281 (6602) 17 dekabr 2016

# Parlament 2017-ci ilin dövlət büdcəsini təsdiqlədi - hökumət güzəştə getmədi

## Deputatlar Vergilər Məcəlləsinə 201 sayda dəyişikliyin lehinə səs verdilər; "Hərbi vəziyyət haqqında" qanun isə ilk oxunuşda qəbul olundu



**Dekabrın 16-da spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirildi. İclasda 2017-ci ilin büdcə zərfi ilə bağlı Nazirlər Kabinetinin üzvləri də iştirak edirdi.**

Gündəlikdəki 27 məsələ təsdiq olunduqdan sonra spiker hökumətə 8 gün vaxt verildiyini xatırladaraq, sözü **maliyyə naziri Samir Şərifov**a verdi. Nazirin çıxışından məlum oldu ki, deputatların əksər təklifləri qəbul olunmayıb. Belə ki, mədəniyyət xərclərinin artırılması ilə bağlı əlavə 3 milyon manat ayrılmasına, habelə Milli Məclisin saxlanması məqsədilə əlavə 850 min manatın ayrılmasına qərar verilib. Gənclər Fonduna ayrılan vəsaitin azalmasını hökumət ciddi problem kimi qəbul etməyib.

Bundan sonra maliyyə naziri deputatları qanun layihəsinə səs verməyə çağırdı.

Spiker komitə iclaslarında 33 deputatın, plenar iclaslarda isə 45 deputatın çıxış etdiyini qeyd edərək, qanunun müzakirəsiz səsə qoyularaq, qəbul olunmasını təklif etdi. Səsvermə ilə layihə qəbul edildi.

Daha sonra büdcə zərfindəki digər qanun layihələri, o cümlədən "2017-ci ildə ehtiyac meyarı haqqında" qanun layihəsini qəbul edib. Gələn il Azərbaycanda ehtiyac meyarı 116 manat təşkil edəcək ki, bu da cari illə müqayisədə 11 AZN artıqdır. Spiker səsvermədən sonra "hökuməti təbrik edirik və büdcəmiz xeyirli olsun" söyləyib Vergilər Məcəlləsinə nəzərdə tutulan dəyişikliklər layihəsinin müzakirəsinə başladı. Qeyd edək ki, sözügedən qanun layihəsində Vergi Məcəlləsinə 115 yeni maddə, 83 dəyişiklik, 3 maddənin ləğvi də daxil olmaqla ümumilikdə 201 dəyişiklik təklif edilir.

**İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə** qanun layihəsi barədə çıxışı zamanı dedi ki, qlobal iqtisadi sarsıntılar, neftin ucuzlaşması Azərbaycan iqtisadiyyatına təsir edib: "Buna görə də risklərin ölkə iqtisadiyyatına təsirinin azaldılması ilə bağlı ciddi işlər görülür. Azərbaycan dövləti 25 illik müstəqillik dövründə çox ciddi uğurlar əldə edib. Son illərdə neftin ucuzlaşması, qlobal sarsıntılar Azərbaycan iqtisadiyyatına təsir edib. Təqdim edilmiş qanun layihələri bu təsirlərin azaldılmasına, ölkənin davamlı inkişafına xidmət edir". Komitə sədri çıxışında deyib ki, təqdim edilmiş qanun layihələri nağd hesablaşmaların azaldılması, elektron ticarətin vergiyə cəlb olunması, vergi yükünün azaldılması, vergi inzibatçılığının sadələşdirilməsi, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi orqanlarının göstərdiyi xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədinə xidmət edir.

**Spiker Oqtay Əsədov** çıxışa yazılanlarda təkid edənlərin olub-olmadığı barədə zala müraciət edərkən iki nəfər israrla söz istədi.

**Deputat Qüdrət Həsənquliyev** Xəzər dənizində baş vermiş faciəyə diqqət çəkərək həyatını itirənlərə başsağlığı verdi və burada təxribatın olması ehtimalından danışdı. *(Bu barədə əlavə yazıda bəhs olunur-E.P.)* Daha sonra deputat ölkədəki vergi yükünün ağırlığına diqqət çəkdi: "Uzun müddətdir mətbuatda müzakirələr gedir ki, bizdə vergi yükü çoxdur. Ona görə də vergi əməkdaşları ilə cinayət əlaqəsinə girməyə çalışırlar ki, onlara rüşvət ödəməklə vergi yükünü azaltsınlar. Mən düşünürəm ki, vergi yükü azalsa, bu kimi neqativ hallar aradan qalxar. Sovet dövründə vergini əsasən döbvlət idarə və təşkilatları vergi ödədiyi üçün bizim vətəndaşlarımıza vergi ödəmək mədəniyyəti aşılanmalıdır".

**Eyni zamanda deputat vətəndaşların vergidən tam azad olunmasını da düzgün saymadı**: "Biz simvolik də olsa, vergiləri tətbiq etməliyik, ancaq vergidən tam azad etməməliyik. Bizdə sənaye parkları var ki, 7 illiyinə vergidən azad olunub. Onlar da simvolik vergiyə cəlb olunmalıdır ki, sonradan təyinatları dəyişəndə vergi ödəməklə bağlı problem yaranmasın". O deyib ki, vergilərin məbləği artdığı üçün bundan sonra ölkəyə avtomobillərin gətirilməsi faizi daha da aşağı düşəcək: "Unutmayaq ki, Azərbaycanda ucuz avtomobillər istehsal olunsa da, bahalı avtomobillər istehsal olunmur".

Spiker təkidlə söz istəyən **Fərəc Quliyev**ə xitabən "Fərəc Quliyev, de, görüm, nə deyirsən" deyə, söz verdi. F.Quliyev isə cavabında "Hər bir deputatın haqqıdır ki, məsələlərə münasibət bildirsin, heç kəs ona irad tuta bilməz" deyə, reaksiya verdi.

F.Quliyev xadimələrin, baxıcıların, habelə digər aztəminatlı şəxslərin vergiyə cəlb olunmasını da düzgün saymadı: "Bizim məqsədimiz sosial vəziyyəti pis olan insanların vəziyyətini yaxşılaşdırmaqdır. Bu, prezidentin də siyasətinin əsasını təşkil edir. Ancaq indi bu kateqoriyalı insanlara yardım etmək əvəzinə, onlara vergi tətbiq edirik. Normal iş tapa bilməyənlər gedib bu kimi işlərlə məşğul olurlar ki, dolana bilsinlər. Ona görə də bu bölümün qanundan çıxarılmasını təklif edirəm".

**Vergilər naziri Fazil Məmmədov** isə deputatların çıxışlarına təpki verdi: "Siz qanunu düzgün şərh eləmirsiniz. Xahiş edirəm qanunu düzgün oxuyun! Düzü, işsizliyin səviyyəsinin dəqiq uçotunu və iqtisadi təhlillərini aparmaq mümkün deyil. Amma həqiqətən də ölkədə işləyənlərin sayı çoxdur. Əgər əhalinin bir hissəsi evlərdə işləyirsə, siz niyə nəzərə almırsınız ki, bu şəxsləri işə götürən də var. Əgər bağda bağban, mühafizəçi, xidmətçi varsa, Məcəlləyə edilən dəyişiklik işçinin uçotunu aparmağa imkan verəcək. Bu dəyişikliklər dövlət büdcəsinin gəlirlərinin təmin olunmasını məqsədinə xidmət etmir. Milyonlarla vəsaiti olanlar var ki, evinə 5 tibb işçisi gətizdirib, xəstələrinə xidmət etdirir. Nə üçün onlar vergi ödəməməlidir? Siz millət vəkilləri hansı təbəqədən danışırsınız? Sosial təbəqədəndirsə, burda söhbət sosial təbəqədən getmir axı. Məsələ işəgötürən tərəfindən verginin ödənilməsindədir".

Spiker "iqtisadi islahatlar davam edir, aylardır gözləyirdik" deyə, qanunu müdafiə etdi və səsverməyə çıxardı.

İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliyə görə, bundan sonra Azərbaycanda taksilərə xüsusi ayrılmış dura-caq yerlərindən kənarda sifariş qəbul etmək qadağan edilir. Dəyişikliyə əsasən, taksilərin xüsusi olaraq müəyyən edilmiş və 5.14 nişanı ilə işarələnmiş dura-caq yerlərindən kənar yerlərdə sifariş qəbul etmək məqsədilə durması qadağandır. Buna əməl etməməyə görə 40 manatdan 50 manata qədər cərimə müəyyənləşdirilir.

**"Yol hərəkəti haqqında" qanuna dəyişikliklər də geniş müzakirə olundu.** Dəyişikliyə əsasən, nəqliyyat vasitəsi parklanma yerində 24 saatdan artıq saxlandıqda İnzibati Xətalar Məcəlləsinin nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında elektron protokol tərtib olunur, nəqliyyat vasitəsi müvafiq icra hakimiyyəti orqanının ən yaxın mühafizə olunan duracağına aparılır və nəqliyyat vasitəsinin istifadəçisinə məlumat verilir. Sürücü nəqliyyat vasitəsinin aparıldığı duracaq barədə məlumatı parkomat vasitəsi ilə də əldə edə bilər. Nəqliyyat vasitəsi parklanma yerində 24 saatdan artıq saxlandıqda sürücü 20 manat məbləğində cərimə edilir.

**Deputat Fəzail Ağamalı** "Binə" və digər ticarət mərkəzləri qarşısındakı parklanmadan əldə olunan vəsaitlərə toxundu. Deputat orta məktəblərin qarşısında maşınların 5-10 dəqiqə dayanmasına belə icazə verilməməsindən də danışdı. Dedi ki, uşaqlarını məktəbə gətirən valideynlərin avtomobilləri evakuatorlar vasitəsilə cərimə meydançasına aparılır: "Ona görə də təklif edirəm ki, avtomobillərin heç olmasa 15 dəqiqə məktəblərin qarşısında saxlanmasına imkan yaradılsın ki, belə xoşagəlməz hallar yaranmasın".

**Deputat Elmira Axundova** bu barədə danışarkən dedi ki, Bakı şəhərinin nəqliyyat sistemində avtomobillərin parklanma məsələsi ciddi problem olaraq qalır: "Qanunsuz parklanma yerlərinin mövcudluğu, hətta namünasib yerlərdə parkomatlar quraşdırılaraq park yerlərinin açılması Bakı şəhərində nəqliyyatın hərəkətini iflic vəziyyətinə salır, tıxaclara səbəb olur.

Bir də görürsən ki, müvafiq icra hakimiyyəti orqanları bir-biri ilə məsləhətləşmədən, ərazidə nəqliyyatın sıxlığını və yolun enini nəzərə almadan park yeri müəyyən edir. Bu da sonradan şəhərdə sıxlığa səbəb olmaqla həm sakinlər üçün narahatlıq yaradır, həm də müvafiq orqanların öz arasında ziddiyyət yaradır". **Deputat təklifini də səsləndirdi:** "Sadəcə, mən bilmək istərdim ki, çətin maliyyə dövründə bu qədər vəsaitin xərclənməsinə ehtiyac varmı? Bəlkə biz o parkomatların gətirilməsini bir neçə il sonraya təxirə salaq, bununla bağlı maddəni həlelik dayandıraq".

**Deputat Siyavuş Novruzov** da bu problemdən bəhs etdi: "Son dövrlərdə dövlətimiz çoxlu sayda yeraltı parklar tikib. Bakının tək mərkəzində avtomobili saxlamaq üçün yerlər var. Amma maşınlar niyə orada saxlanılmır? Səbəb budur: elə bir qiymət qoyulur ki, orada sadəcə siçanlar oynayır". **YAP-çı deputat bu sahəyə diqqət ayırmağı zəruri saydı:** "Əgər bir nəfər həmin əraziyə yaxın olan yerdə işləyirsə, hər gün gəlib maşınını orada saxlayır. Bununla da həftəyə 40 manat pul ödəməlidir. Beləliklə, ay ərzində 200 manata qədər vəsait edir. Bir vətəndaş aldığı avtomobilinə əmək haqqının 30-40 faizini ödəməlidir ki, maşınını saxlasın. Ona görə də, vətəndaş başqa yerlərdə ucuz dayanacaqlar axtarmalı olur. Bu isə hökumətin tikdiyi yeraltı dayanacaqların boş qalmasına gətirib çıxarır".

**S.Novruzov ardınca hökumətə müraciət edib:** "Tarif Şurası hər şeyə baxır, arada üzünü bu tərəfə də çevirsin. Dayanacaqlarda kim hansı qiyməti istəyirsə, onu tətbiq edir. Kim istəyirsə, qoltuğuna bir parkomat vurur, gətirib istədiyi yerə qoyur. Bu, dövlətə fayda vermir. Digər tərəfdən də dövlətin tikdiyi yerlər boş qalır. Onun saxlanması xərcləri var. Hansı ticarət mərkəzi yaxşı işləyirsə, parklanmanın saatını 2 manat edir. Başqa birində isə zəifdirsə, 1 manat təyin edirlər. Kart vasitəsi ilə qeydiyyatdan keçəndən sonra ödənilən bütün vəsaitdən dövlətə vergi verilməlidir. Hərə qoltuğuna bir parkomat vurur, gətirir, hara gəldi qoyur. Dövlətə də bir xeyri yoxdur, üstəgəl tıxac yaradır".

Spiker Oqtay Əsədov S.Novruzovun fikirlərini təqdir etdi.

"Hərbi vəziyyət haqqında" qanun layihəsi barədə isə **Milli Məclis sədrinin birinci müavini Zifayət Əsgərov** məlumat verdi. Birinci vitse-spiker bildirdi ki, hazırda qüvvədə olan, 1994-cü ildə qəbul edilən qanun tamamilə yenidən işlənib. Sədr müavini qanunun mahiyyətindən bəhs etdi: "Azərbaycanın bütün ərazisində hərbi vəziyyətin elan və ləğv edilməsi, təmin edilməsi, cəbhəboyu zonada, hərbi hissələrin yerləşdiyi ərazilərdə hərbi rejimin xüsusiyyətləri nəzərdə tutulub. Birinci fəsildə 20 müddəa var. Burada əsas anlayışlar, hərbi vəziyyətin elan olunması, onun uzadılması və ləğv edilməsi, məqsədləri barədə yazılıb. Həmçinin hərbi vəziyyətin elan oluması haqqında prezidentin fərmanının təsdiq edilməsi, səfərbərlik elan olunması məsələləri öz əksini tapıb. Layihənin 3-cü maddəsində isə hərbi vəziyyətin elan olunmasının səbəbləri açıqlanıb". **Z.Əsgərov layihənin birinci fəslindəki 6-cı maddənin vacibliyinə diqqət çəkdi:** "Hərbi vəziyyətin elan olunması haqqında fərman iki halda Milli Məclisdə təsdiq oluna bilər. Fərmanın dərhal Milli Məclisin təsdiqinə göndərilməsi və 24 saat ərzində qərar qəbul edilməsi göstərilib. Hərbi vəziyyətin elan edilməsindən sonra onun 24 saat müddətində Milli Məclisə təqdim edilməsi və sessiyasının olub-olmamasından asılı olmayaraq, 48 saat müddətində buna baxılıb qərar qəbul edilməsi göstərilib". 5 fəsil, 27 maddədən ibarət qanun layihəsi Konstitusiyanın 94-cü maddəsinin birinci hissəsinin 8-ci bəndinə uyğun olaraq Azərbaycanın bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyətin elan və ləğv edilməsi, hərbi vəziyyətin qüvvədə olma müddətinin uzadılması, hərbi vəziyyət rejiminin təmin edilməsi qaydasını, cəbhəboyu zonada hərbi hissələrin yerləşdiyi ərazilərdə rejimin xüsusiyyətlərini, hərbi vəziyyət şəraitində fiziki və hüquqi şəxslərin hüquqlarının təminatını müəyyən edir.

**Deputat Qüdrət Həsənquliyev** Türkiyədə baş verən iyul hadisələrini xatırladaraq təklif etdi ki, hərbi vəziyyətlə bağlı fərmanın Milli Məclisdə baxılması müddəti qısaldılmalıdır. Deputat qərarın verilməsinin ardınca üst-üstə 72 saatlıq müddət qoyulmasını doğru saymadı. Azərbaycanın kiçik bir ölkə olduğunu deyərək qeyd etdi ki, müzakirələr üçün deputatları bir neçə saat ərzində toplamaq mümkün olduğu halda, parlamentə iki gün vaxt verməyə ehtiyac yoxdur.

**Sənəd I oxunuşda qəbul edildi.**

**❑ Elşad PAŞASOY**



# Çox mehriban çıxış yolu

Zamin HACI
zaminhaci@gmail.com

**Gül kimi verilişi nahaq yerə bağladılar. Halbuki, mən artıq evdəki televizorda həmin telekanalizasiyanı tutmaq haqda düşünürdüm. Çoxdan, efirində pornofilmlər veriləndən bəri bu axmaq kanalı maraq dairəmdən tamam silmişdim. İndi isə internetdə verilişdən parçanı görəndə çox maraqlı gəlmişdi. Ləzzətlə baxmışdım. Heyf. Hələ telekanalizasiya rəhbərliyinin açıqlamasına baxın: "Verilişdə səslənən fikirlər kanalımızın adına xələl gətirirdi". Hmm. Nə üçün belə düşünürsünüz? Qətiyyən xələl gətirmirdi.**

Verilişin adı da qəşəng idi: "Çıxış yolu". Düzü, bir qırıq video ilə (az qaldı yazım "video cırığı ilə") bütöv verilişin nədən bəhs elədiyini, bizi hara aparıb çıxarmaq istədiklərini anlamadım. Ancaq elə o 5-6 dəqiqə də bəs elədi. Baxmayanlar üçün qısa özətini yazım: ana və oğul studiyada oturub, bir qaqaşı da telefonla qoşublar. Telefonla qoşulan qaqaş studiyadakı oğlanın keçmiş arvadına vaxtilə nəsə sevgi mesajları yazıbmış. İndi studiya bunu araşdırırdı ki, nə üçün qaqaş öz bibisi oğlunun keçmiş arvadına (bunu da sağ olsun, studiyadakı ağbirçək ekspertin sayəsində öyrəndik - əslində yazımızın qəhrəmanı o ekspertdir) intim mesajlar yazıbdır.

Veriliş bir az da söyüşməli meyxana deyişmələrinə bənzəyirdi. Hamı bir-birini söyürdü. Studiyadakı qaqaş telefondakını, telefondakı studiyadakını, aparıcı hər ikisini, studiyadakı ana bütün tərəqqipərvər ictimaiyyəti və sairə (Ümid edirəm bu yazıdan sonra oxucular məni söyməz). Doğrusu, bu ana obrazlı arvadın efirə çıxarılması böyük risk idi, çünki ondakı hikkə ilə Yaxın Şərqdə təzə münaqişə ocağı alovlandırmaq olardı, hətta mən fikirləşirəm, nəinki Yaxın Şərqdə, Kanada və ABŞ arasında müharibə də mümkün idi, yetər ki, o arvadı Böyük Göllər zonasına desant atasan.

Beş-altı dəqiqə beləcə mehriban dialoqdan sonra mikrofonu əsl mehriban - Mehriban Xanlarova ələ aldı. Respublikanın əməkdar artisti, 4 dəfə prezident mükafatı laureatı Mehriban xanım, sən demə, bu gülməşəkər verilişdə ekspert rolunu ifa edirmiş. Əlbəttə, millətə çıxış yolunu aktyor və aktrisalar göstərməlidir. O boyda Amerikanın prezidentini neçə dəfə mütrüflər arasından seçiblər, nəticədə bütün dünyaya çıxış yolu göstərirlər, deyirlər, gəmi düzəldib hamınızı Marsa basacağıq, planet özümüzə qalacaq. Bu haqda Amerikada dövlət proqramı var. Nəsə, mövzumuz bu deyildir. Dəhşət maraqlı temamız var. Sosial vəziyyətin ağırlığından, bu il də Qarabağsız qalmağımızdan, korrupsiyadan, neftçilərin ölməyindən yazmağın nə mənası var? Əsas məsələ bibi oğlunun arvadına yazılan "balamsan, mama ota gedəndə, gəlim sizin çəpərə, samanlıqda mazaqlaşaq" tipli mesajdır. Bilirsiniz, bizim xalq çox praqmatik xalqdır. Nə etmək olar, ölənlə ölməyin, acla ac qalmağın, problemlə probleml əşməyin nə mənası var? O üzdən, kimsə öləndə heç kim ölünü ağlamır, hamı qalanı ağlayır. Demirlər, bu yazıq niyə belə zülümlə yaşadı, zülümlə öldü. Deyirlər, bir çətən külfəti qalıb, hökumətdən yardım istəyirik, gətirin beş manat verin, rəhmətliyin qanı batsın, vecimizə olmaz.

Hə, bunlar zəhlətökən söhbətlərdir, qayıdaq əməkdar artistin yanına. Hətta mən düşünürəm ki, ona xalq artisti adı verilməlidir. Çünki mikrofonu alan kimi studiyadakı oğlana dişinin dibindən çıxanı söylədi və dedi ki, səndə kişilik, qeyrət-zad olsaydı o keçmiş arvadına mesaj yazanın başını kəsərdin. Bir neçə dəfə də təkrar elədi, çünki fikirləşdi birdən biz səhv eşidərik, misal üçün, elə bilərik "dişini yonardın", "qaşını alardın", nə bilim "maşınını yandırardın" deyibdir. Yox. Birbaşa dedi ki, o zəng vuran qaqaşın başını kəsməlisən. (Maşın yandırmağı heç məsləhət görə də bilməzdi, çünki o iş bizdə Qarabağ qazilərinin inhisarındadır).

İndi bizim hansımızsa efir cəhənnəm, belə şeyləri xəyalımızda götür-qoy eləsək polis və prokurorluq dərhal qapını kəsdirər, deyərlər sənə cinayət işi açırıq, filankəsin başını xəyalında niyə sığallamısan. Ancaq əməkdar artist necə qaza gəlibsə baş kəsməyə çağırır, güldən ağır söz eşitmir. Niyə, çünki əməkdar artistdir. Ona olar. 4 dəfə də prezident mükafatı alıbdır.

Çıxış yolu "Çıxış yolu" verilişini bağlamaq olmasın gərək. Düzgün metod bu olardı ki, növbəti verilişdə qaqaşa balta verib salardılar zəng vuran qaqaşın dalıyca, biz də popkorn alıb, oturub baxardıq.

**İndi söz əlaqədar təşkilatlarındır - başınız kəsilsin.**

# Netanyahu, Hokstayn, İzoria və Roqozin...

# Bakıya emissar axınının ilginc pərdəarxası - saat əqrəbləri yenidən tutuşdurulur

## Azərbaycandan Rusiyaya verilən yeni incə mesajlar və onların arxasındakı hədəflər; Qarabağ məsələsi hərbi-texniki və energetik təhlükəsizlik məsələləri ilə eyni kontekstdə gündəmə gətirilir - mühüm gəlişmə...

**Başa çatmaqda olan həftə Bakıya yüksək və ali rütbəli xarici qonaqların səfərləri baxımından zəngin, hətta bənzərsiz oldu. Həftənin ilk günü Azərbaycana təşrif buyuran İsrail baş naziri B.Netanyahunun ardınca ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi Amos Hokstayn, ondan bir gün sonra Gürcüstanın müdafiə naziri və eyni gündə Rusiya baş nazirinin müavini, prezident Putinin hərbi kuratoru Dmitri Roqozin Bakıda oldular.**

Qonaqlar Azərbaycanda ən yüksək səviyyədə qəbul edildilər, görüşlər keçirdilər. Bu görüşlərin hamısı istisnasız olaraq, Azərbaycanın da yer aldığı Güney Qafqaz regionunda təhlükəsizlik, o cümlədən energetik təhlükəsizlik və hərbi-texniki məsələlərlə bilavasitə bağlı olması ilə diqqət çəkir.

***

*Ondan başlayaq ki, İsrail baş nazirinin Bakı səfəri daha çox iki hədəf güdüb:* **1.** Azərbaycanla hərbi və hərbi-texniki, təhlükəsizlik sahələri üzrə əməkdaşlığın daha da dərinləşdirilməsi. **2.** İsrail təbii qazının tikilməkdə olan Cənub Qaz Dəhlizi (TAP, TANAP) vasitəsilə Avropa bazarlarına çatdırılması - nə barədə ki, baş nazir Netanyahu prezident İlham Əliyevlə görüşdə ölkəsinin istəyini açıq şəkildə bəyan edib.

Ekspertlərə görə, bu istək reallaşa, o zaman TAP və TANAP boru xətləri Rusiyanın inşasına başlamağa hazırlaşdığı "Türk axını"na ciddi alternativ olacaq. Qənaətlərə görə, onsuz da Qərb ölkələri Rusiyanın qaz asılılığını azaltmaq üçün Azərbaycan qazına üstünlük verirlər. Ancaq Azərbaycanın qaz ehtiyatı azdır və Rusiya qazına real alternativ deyil. Buna baxmayaraq, əgər İsrail zəngin qaz yataqlarını da TAP və TANAP-a yönəldərsə, o halda Azərbaycanla Türkiyənin birgə inşa etdikləri boru xətləri kifayət qədər qazla doldurulacaq.

Maraqlıdır ki, Netanyahudan cəmi iki gün sonra ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi, "Türk axını"nın əleyhdarı kimi tanınan Amos Hokstayn da Bakıda oldu, prezident İlham Əliyevlə görüşdü və Qərbin Cənub Qaz Dəhlizi layihəsinə dəstəyini bir daha ifadə etdi. Eyni zamanda Bakıdan Rusiyaya incə mesajlar verildi.

Rəsmi məlumatlara görə, görüşdə ABŞ-Azərbaycan əlaqələrinin yüksək səviyyədə olduğu və uğurla inkişaf etdiyi vurğulanıb. Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Yada salaq ki, Barak Obama administrasiyasında enerji məsələləri üzrə əsas fiqurlardan biridir. O, Azərbaycanda bir neçə dəfə səfərdə olub və 2014-cü ildə Cənub Qaz Dəhlizinin təməlqoyma mərasimində iştirak və çıxış edib. Hokstayn Azərbaycan prezidentinin bu layihənin reallaşmasında göstərdiyi mövqeyi həmişə təqdir edib.

Hokstaynın səfəri "Türk axını" layihəsinin Rusiya və Türkiyə tərəfindən rəsmən təsdiqlənməsindən az sonraya təsadüf eləməsi ilə diqqət çəkir. Bəllidir ki, bu il oktyabr iki dövlət "Türk axını" layihəsinin reallaşdırması üzrə müqavilə imzalayıb. Söhbət həm də qardaş Türkiyənin maraqlarından getdiyindən, təbii ki, Azərbaycan bu anlaşmaya qarşı da həssasdır.

Bu xüsusda ötən ay İlham Əliyev "Sputnik" agentliyinə müsahibəsində bəyan etmişdi ki, "Bakı Rusiya-Türkiyə layihəsi olan "Türk axını" qaz kəmərinin bərpasından məmnundur. O, regionda əməkdaşlığı və təhlükəsizliyi möhkəmləndirəcək". Dövlət başçısı əlavə etmişdi ki, "qonşularımız və dostlarımız tərəfindən həyata keçirilən layihələrə, o cümlədən, "Türk axını" layihəsinə ancaq şad ola bilərik. Çünki bu, regionda qarşılıqlı əməkdaşlığı və təhlükəsizliyi möhkəmləndirir, ölkələrə regionda daha çox öz iqtisadi və enerji maraqlarını təmin etməyə imkan verir".

Ancaq fakt faktlığında qalır ki, iki layihə hər halda həm də siyasi mahiyyət kəsb etdiyindən, bir-birinə alternativdir. Əksər analitiklər İsrail baş naziri və Dövlət Departamenti rəsmisinin Bakı səfərlərindən dərhal sonra Rusiya baş nazirinin müavini D.Roqozinin Bakı səfərini həm də bu kontekstdə qiymətləndirirlər. Onların fikrincə, Moskva Bakının çoxşaxəli hərbi əməkdaşlıq strategiyası ilə yanaşı, İsrail və ABŞ (Qərb) səviyyəsində dəstəklənən energetik təhlükəsizliyinin möhkəmlənməsindən də əndişəlidir. Çünki o halda Rusiya bölgədə sıxışdırılmış kimi görünür.

***

Rusiya əlbəttə ki, regionda Bakı-Tiflis-Ankara hərbi əməkdaşlığının dərinləşməsinə də isti baxmır - hansı əməkdaşlıq ki, xüsusən də son illər genişlənməyə üz tutub. Ən azı ona görə ki, Türkiyə NATO blokunun aparıcı üzvlərindən biri, Gürcüstan isə NATO-ya üzv ərəfəsində olan dövlətdir. Tiflisin İsraillə də hərbi-texniki sahədə əlaqələri mövcuddur.

Bu mənada Gürcüstanın müdafiə naziri Levan İzorianın başçılıq etdiyi nümayəndə heyətinin Bakı səfərinə də Moskvada laqeyd yanaşılmadığı dəqiqdir. Yeri gəlmişkən, İlham Əliyevlə görüşdə gürcü hərbi nazir ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü bundan sonra da dəstəkləyəcəyini bildirib və Azərbaycanın da Gürcüstanın ərazi bütövlüyünə verdiyi dəstəyə görə minnətdarlığını ifadə edib, Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi əsasında həllini vurğulayıb.

Gürcüstan müdafiə nazirinin xaricə ilk rəsmi səfərini məhz Azərbaycana etməsi də diqqətdən yayınmayıb. Bu faktı ölkələrimiz arasında münasibətlərin yaxşı göstəricisi kimi dəyərləndirən prezident Əliyev strateji dostluq əlaqələrinin müxtəlif istiqamətlərdə, o cümlədən təhlükəsizlik sahəsində uğurlu inkişafından məmnunluq bildirib. Ölkə başçısı onu da qeyd edib ki, Azərbaycan Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləyib.

Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlət başçısı məxsusi qeyd edib ki, Minsk Qrupunun həmsədr ölkələri dəfələrlə status-kvonun qəbuledilməzliyini və onun dəyişilməsinin vacibliyini bəyan ediblər və bu yanaşma münaqişənin nizama salınmasının əsasını təşkil etməlidir. Prezident ölkələrimizin müdafiə nazirlikləri arasında əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

***

**Beləcə, rəsmi Bakı və Tiflis regionda separatizmin və bölücülüyün əsas körükləyicisi olan Moskvaya bir daha aydın mesaj verib ki, region ölkələrinin ərazi bütövlüyü və suverenliyini qulaqardı eləməklə, işğalı və separatçılığı müdafiə eləməklə Rusiya bölgədə heç bir dövlətlə dərin əməkdaşlığa ümid edə bilməz. Roqozinin Bakı səfəri ərəfəsində verilən bu mesaj xüsusi önəm daşıyır. Bu mənada Bakıya artan emissar səfərlərini saat əqrəblərinin yenidən tutuşdurulması kimi də qiymətləndirmək mümkündür.**

❑ **Siyasət şöbəsi**



YENİ MÜSAVAT
N 281 (6602) 17 dekabr 2016

# Dünyada sönən demokratiya dalğası geri qayıdacaqmı?

**Son aylarda dünyada demokratiyanın süquta doğru getdiyi barədə fikirlər tez-tez səslənməkdədir. Xüsusilə, Ötən ay Avropanın əsas demokratik ölkəsi sayılan ABŞ-da keçirilən prezident seçkilərindən sonra belə fikirlərə daha çox rast gəlirik.**

Ekspertlərə görə, proseslər bu şəkildə davam edərsə, yaxın gələcəkdə demokratik dəyərlərə daha ciddi təhlükə yaranacaq. Bir çox ölkələrdəki seçkilərdə demokratik qüvvələrin aşkar şəkildə məğlubiyyətlərinin bu prosesə təkan verəcəyi də deyilir. Bununla belə ekspertlərin bəziləri məsələdə nikbindir. Onlar hesab edirlər ki, bu, keçici bir dövrdür və müəyyən zamandan sonra demokratiya dalğası yenidən geri qayıdacaq.

**Politoloq Hikmət Hacızadə** də məsələdə nikbin olan şəxslər sırasındadır. O hesab edir ki, demokratiya yeni-yeni ərazilər ələ keçirməkdədir: "Humanizm dəyişib, liberalizm bir az büdrəyib. Demokratiya deyəndə ki, söz azadlığı, seçki, müstəqil məhkəmə var. Demokratik ölkə kimi tanınan dövlətlərdə hakimiyyətə gəlmiş yeni şəxslər bunu inkar etmirlər. Humanizm sahəsində miqrantlara, azlıqlara münasibət bir az dəyişib. Demokratiyanın sıradan çıxdığını görmürəm və bu kimi fikirlərlə razı deyiləm. Bütün bunlar böyük qlobal problemlər və krizislərlə bağlıdır. Hər yer böhrandadır. Demokratik ölkələr XX əsrdə 3-4 dəfə belə krizislər yaşayıb və onları üstələyiblər. I və II dünya müharibələri oldu, ardınca soyuq müharibə baş verdi, indi də bu problemi dünya yaşayır. İndi müharibələr yoxdur, amma əvəzində böhran var. Bunu da demokratik ölkələr üstələyəcək. Çünki ağılla işləyirlər. Bu məsələdə çox bədbin deyiləm. Çətinliklər var, bununla razıyam, amma ölümcül vəziyyət də yoxdur. Demokratiyanın sonunu görmürəm. Bu anlayışı deyəndə hamı min dənə şey nəzərdə tutur. Demokratiya azad seçki, söz azadlığı, müstəqil məhkəmədir. İnanıram ki, bunlara toxunulmayacaq. Problemləri həll etmək üzərində işlər gedir. Bu problemi hər ölkə özü üçün həll etməlidir. Əgər bir cəmiyyət demokratiyanı qura bilmirsə, diktaturaya, zorakılığa qarşı mübarizə apara bilmirsə, bu da onun öz işidir. Demokratik dövlətlər belə ölkələrə qoşun göndərməli deyillər ki. Demokratiya yuxarıda sadaladıqlarımdır. Bunlar da günü-gündən çiçəklənir. İndi növbədə Ukraynadır. Bu ölkədə demokratiya qurmaq üçün çalışmalar var. Gürcüstan da bu yolu gedir. Ortalarda biz qalmışıq. Günü-gündən demokratiya yeni ərazilər tutur. Nə vaxtsa bu dəyərlər tam bərqərar olacaq. Özümüzdən çox şey asılıdır. Əgər Rusiyanı yerində otuzdura bilsələr, keçmiş SSRİ respublikalarında demokratiya daha tez inkişaf edəcək. Bunun üstündə Rusiya ilə Qərb arasında soyuq müharibə gedir. Amerikanın yeni prezidentinin nəyə qadir olduğunu tezliklə görəcəyik. O konkret addımlar atsa, Rusiya imperializmi çökəcək. O zaman Ukrayna da, Gürcüstan da azad olacaq, bəlkə biz də".



**Hikmət Hacızadə:** "Demokratiyanın sonunu görmürəm"



**Natiq Miri:** "Yaxın 5 il üçün bu məsələ prinsipial olmayacaq"

**Siyasi şərhçi Natiq Miri** bildirdi ki, dünyada gedən proseslər mövcud situasiyanı yaradıb: "Bu gün demokratiyanın kölgəsinə çəkilməsində bilavasitə Qərb faktoru da mühüm rol oynayır. Qərbin Yaxın Şərqdə başlatdığı "Ərəb baharı" adı altındakı proseslər, bunun təsiri ilə Suriyada cərəyan edən hadisələr, eləcə də, postsovet məkanında baş verənlər demokratiyanın kölgəyə çəkilməsinə səbəb olan amillərdir. Əslində demokratiyanın aparıcı ölkəsi olan Amerikada Obama Administrasiyanın apardığı yanlış siyasətin nəticəsi olaraq dünyada elə proseslər getdi ki, miqrant axını başladı. Nəticədə Avropada düşüncələr sağ mərkəzçi yöndə formalaşmağa başladı. Bundan istifadə edən Rusiya sağçı qüvvələrə dəstək verməklə bu qüvvələrin seçkilərdə üstünlük qazanmasına şərait yaratdı. Avropa Birliyi də demokratiya məsələsini vazkeçilməz amil kimi ortalığa qoymur. İş o yerə çatıb ki, ABŞ-dakı seçkilərdə rus hakerlərin seçki prosesinə müdaxilə etmələrindən danışılır. Hətta Amerika rəhbəri Barak Obama bu yöndə Rusiya prezidenti Vladimir Putinə xəbərdarlıq etdiyini də etiraf etdi. Görünən odur ki, Rusiyanın təsiri ilə Qərb dünyasında demokratiya məsələsi artıq ikinci plana keçir. Bu baxımdan yaxın dövr üçün demokratiyanın kölgədə qaldığını demək olar. Amma bu o demək deyil ki, uzunmüddətli proses olacaq. Sağ millətçi qanadlar özlərini Qərb dəyərlərinə uyğunlaşdıra bilməyəcəkləri təqdirdə demokratiya məsələsi yenidən önə çıxacaq. Nəticədə ictimai şüurda demokratiyanın alternativinin olmadığı fikri formalaşacaq. Bu təhlükə hazırda potensial təhlükə olaraq Qərb dünyasında qalmaqdadır. Demokratiyanın ikinci planda olması postsovet ölkələrində, eləcə də avtoritar quruluşlarda heç bir önəm daşımayacaq. Qarşıdakı beş ildə, yeni Tramp hakimiyyəti dövründə demokratiyanın ciddi önəm daşımayacağı indidən qəbul olunub. Çünki Tramp açıq şəkildə bəyan edib ki, qeyri-demokratik ölkələrdə hakimiyyətlərin devrilməsi dönəmi bitib. Bu da o deməkdir ki, demokratiya yaxın 5 il üçün prinsipial məsələ olmayacaq. Bu da avtoritar ölkələrin qarşıdakı beş ildə çiçəklənmə dövrünü yaşayacaqları anlamına gəlir".

❑ **Cavanşir ABBASLI**

# Amerikalı enerji emissarının Bakı səfərində əsas hədəf

## Elxan Şahinoğlu: "Bakının TAP qaz xəttinin inşasının ləngiməsi ilə bağlı narahatlığı var"

**"ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstayn il boyu Azərbaycana tez-tez gəlir. Hiss olunur ki, Dövlət Departamentində Azərbaycan mövzusu ona tapşırılıb. Çünki Amerikanın hazırda Azərbaycanla əlaqəsinin əsas prioriteti məhz enetrji mövzusudur ki, bu da Amos Hokstaynın kurasiyasına aiddir".**

Bu sözlər "Yeni Müsavat"a ABŞ Dövlət Departamentinin diplomatının Bakıya son səfərini şərh edən **analitik Elxan Şahinoğlu**na məxsusdur. Analitik deyir ki, həmişə olduğu kimi bu dəfə də Azərbaycan prezidenti ilə yanaşı xarici işlər və energetik nazirləri ilə də görüşən amerikalı diplomatın səfərinin bir neçə məqsədi olub.

Qeyd edək ki, Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstayn cümə axşamı günü Bakıda jurnalistlər üçün mətbuat konfransı keçirib. Amerikalı diplomat neftin qiymətlərindən tutmuş, enerji dəhlizlərinə qədər müxtəlif mövzulara toxunub. Diplomat deyib ki, ABŞ Cənub Qaz Dəhlizinin



Amos Hokstayn

reallaşması istiqamətində səylərini davam etdirəcək, bu layihə ABŞ üçün prioritetdir: "Bu, Azərbaycan üçün vacibdir, eyni zamanda Avropada enerji və siyasi təhlükəsizliyi təmin edən layihələrdən biridir. ABŞ bu layihəni BTC qədər strateji layihə hesab edir və eyni əhəmiyyətə malik olduğunu düşünür".

**A.Hokştayn bəyan edib ki, Azərbaycan və ABŞ təkcə yaxın dost deyil, həm də strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Eyni zamanda Rusiyanın enerji bazarındakı monopolist roluna qarşı olduğunu deyib. Diplomatın Bakıda keçirdiyi danışıqların mahiyyətinə gəlincə, E.Şahinoğlunun fikrincə, bu səfər zamanı Bakıya bir neçə mesajlar çatdırılıb:** "Birincisi, Amos Hokstayn rəsmi Bakını inandırmağa çalışdı ki, Amerikada prezident və administrasiyanın tərkibi dəyişsə də, Vaşinqton əvəlkitək Azərbaycanın iştirakçısı olduğu Cənub Qaz Dəhlizi layihəsinə dəstək verəcək. Bu faktorun özü Bakı ilə Amerikanın yeni administrasiyası arasında əlaqələrin inkişafına xidmət edəcək. Bəlkə bu Amos Hokstaynın hazırkı vəzifədə Azərbaycana son səfəridir. Buna baxmayaraq, Vaşinqtonun TAP və TANAP layihələri Tramp administrasiyasının da maraqlarına xidmət edir. Çünki Amerikada prezident kim olursa-olsun, Rusiya qazının Avropa bazarında dominant rol oynamasını istəməz".

**İkinci tərəfdən E.Şahinoğluya görə, indi əsas məsələrdən biri TAP layihəsinin taleyidir:** "Rəsmi Bakının TAP boru xəttinin inşaatının gələcəkdə ləngiməsi ilə bağlı müəyyən narahatlığı var. İtaliyada bəzi qüvvələr boru xəttinin ekologiyaya zərər vuracağını iddia edirlər. Hiss olunur ki, bu qüvvələr Avropa içərisindən də kifayət qədər dəstək alırlar. Aydındır ki, bu məsələni rəsmi Bakı təkbaşına həll etmək iqtidarında deyil, Amerikanın dəstəyinə ehtiyac var. Amerikanı Avropa İttifaqının həm siyasi, həm də istisadi tərəfdaşıdır və əlində Avropa ölkələrinə təsir etmək üçün kifayət qədər aləti var. Rəsmi Bakı boru xətlərin layihələrinin sürətlə tamamlanması üçün Vaşinqtonun həmin alətləri işə salmasını istəyir".

❑ **KƏNAN**

# "Tramp oyun qaydalarını gözləmək məcburiyyətindədir"

## Dərin dövlət biznesmen prezidentin arxasında duracaqmı? Ekspert: "Nə o, nə də yeni dövlət katibi ölkəni öz bildikləri kimi idarə edə bilməyəcəklər"

**Dünya hələ də Amerikanın yeni prezidenti Donald Trampı qəbullana bilmir. Seçkilərindən üstündən bir aydan çox vaxt keçsə də, dünya gündəmini ABŞ-ın yeni başçısı zəbt etməkdə davam edir. Bu da dünyanın hələ də onun seçilməsinin şokundan ayılmadığı anlamına gəlir.**



Donald Tramp

Yeni biznesmen prezident artıq öz komandasını da formalaşdırmağa başlayıb. Təyinatlarda heç şübhəsiz ki, əsas diqqətçəkən dövlət katibi postu oldu. D.Tramp öz sahəsinə uyğun olaraq, əsas vəzifə olan dövlət katibliyinə ölkənin iri neft şirkəti "Exxon Mobil"in rəhbəri Reks Tillersonun namizədliyini irəli sürəcəyini bəyan etdi. Rəsmi qərarın açıqlanması üzümüzə gələn həftə gözlənilsə də, bu şəxsin dövlət katibi olacağını indidən söyləmək olar. Bu da o anlama gəlir ki, biznesmen prezident biznesmen dövlət katibi ilə yoluna davam edəcək.

Hazırda Tramp ətrafında gedən müzakirələrdə əsas yeri Amerikanın dərin dövlətinin onun arxasında durub-durmayacağı ilə bağlıdır. Çoxları hesab edir ki, yeni dövlət başçısı dərin dövlətlə hesablaşacaq, yeni Amerikanın ənənəvi siyasətini davam etdirəcək, əvəzində isə dərin dövlət yaxın 4 ildə onun yanında olacaq.

**Siyasi şərhçi Elxan Şahinoğlu** da bu fikirdədir. O hesab edir ki, Amerikadakı dərin dövlət anlayışı prezident Donald Trampa və yeni dövlət katibinə ölkəni öz bildikləri kimi idarə etməyə imkan verməyəcək: "İstənilən prezidentin dönəmində belə olub. Amerikanın oturuşmuş milli və təhlükəsizlik maraqları var. Bu maraqlar çərçivəsində Trampın rusiyalı həmkarı Vladimir Putinlə dostlaşması və Kremlə bütün şıltaqlıqlarını bağışlamağa da imkan verməyəcək. Amerikada "dərin dövlət" dedikdə hərbi, siyasi və diplomatik dairələr anlaşılır. Buna müxtəlif lobbiləri də əlavə etmək lazımdır. Məsələn, hazırki prezident Barak Obama İsrailin baş naziri Benyamin Netanyahunun siyasətini tənqid etdi və onunla görüşməkdən vaz keçdi - buna baxmayaraq, Benyamin Netanyahu Amerika Konqresinin dəvəti ilə Amerikaya getdi. Barak Obama bu səfərə mane ola bilmədi. Çünki Netanyahunu Amerikada dərin dövlət görmək istəyirdi. Və ya Barak Obama hər dəfə dedi ki, Amerikada silah satışını məhdudlaşdırmaq lazımdır ki, qətllərin sayı azalsın. Ancaq yenə bir şey edə bilmədi. Çünki Amerikada silah lobbisi tarixən güclüdür və öz istəklərini siyasi dairələrə və cəmiyyətə diktə edir. Eləcə də, Donald Tramp oyun qaydalarını gözləmək məcburiyyətindədir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 281 (6602) 17 dekabr 2016

**"Suriyanın Hələb şəhərində Əsəd-Rusiya-İran hərbi birləşmələri tərəfindən keçirilən əməliyyatlar nəticəsində burada yaşanan humanitar fəlakət və yüzlərlə insanın zorakılıqla üzləşməsi faktının Azərbaycan televiziyalarının xəbərlərində xilas əməliyyatı kimi təqdim edilməsi görəsən haradan qaynaqlanır? Sanki İranın rəsmi televiziyalarının verdiyi məlumatların təkrarını dinləyirsən".**

# Deputatlardan TV-lərə etiraz

## Peşəkar ekspert qıtlığı, yoxsa...

Bu barədə **deputat Fazil Mustafa** özünün facebook səhifəsində yazıb. Deputat qeyd edib ki, Hələbdə İŞİD terrorçularının və başqa qruplaşmaların olması faktını vurğulamaq olardı, ancaq onlara qarşı da savaşanların terrorçu olduğunu unutmamaq və bunların sırf anti-Türkiyə koalisiyasının üzvləri olduğunu gözardı etməmək lazımdır. Digər tərəfdən burada qalan mülki əhalinin Türkiyə ilə daha dərin qohumluq bağları var və indi onların yoğun atəş çəmbərindən xilas olması üçün Türkiyə çox ciddi diplomatik çalışmalar həyata keçirir.

**F.Mustafa sonra bildirib ki, Hələb əməliyyatı əslində birbaşa Türkiyənin bölgədə mövqeyini zəiflətmək üçün başladılıb və belə anlaşılır ki, Azərbaycanın informasiya məkanındakı Türkiyəyə qarşı olan qüvvələr bunu rəsmi xəbərlərdə ifadə etməyi məqsədəuyğun saymışlar:** "Halbuki bizim efir məkanında Türkiyənin maraqları müdafiə edilməsə də, heç olmazsa İranın, Rusiyanın maraqlarının müdafiəçisi kimi də görünməməliydik. Hər halda bu məsələyə mütləq aydınlıq gətirilməlidir".

Milli Məclis üzvünə həmkarı Qənirə Paşayeva dəstək verib. **Deputat Qənirə Paşayeva** da TV-lərdən narazılığını ifadə edib. Xanım deputat efirə çıxarılan ekspertlərin əksəriyyətinin naşılığından şikayətlənib: "Fazil Mustafa bəyin Azərbaycan televiziyalarında Suriya ilə bağlı gedən xəbərlərin əksəriyyətində yanaşmaların doğru olmaması ilə bağlı narahatlığını oxudum bir az əvvəl. Bir müddət əvvəl İraqda baş verən hadisələrdən danışırdılar televiziyalarımızın birində. Baxdım ki, çıxış edənlərin heç biri bir dəfə də olsun İraqda olmayıb. Ölkənin keçmişi, yaşanılan proseslər, etnik və dini baxımdan vəziyyət və s. kimi həssas mövzuları içəridə görməyib, hiss etməyib amma şərh edirdi. İraqda dəfələrlə olmuş və jurnalist kimi İraq müharibəsi dövründə çalışmış bir insan kimi deyirdim bunlar nə danışır?! Bunların mənim gördüyüm İraqdan xəbəri belə yoxdur. Bir müddət əvvəl isə Suriyadan, köçkünlərdən danışırdılar. Yenə də həyatında Suriyanı görməmiş insanlar geniş şərhlər verirdilər. Suriyanın hər tərəfini görmüşəm, Hələb, Dəməşqlə bərabər Bayırbucaq, Türkməndağı deyilən bölgələr və bir sıra digər bölgələrində olmuşam, amma dinlədiyim adamlar sanki başqa bir ölkədən danışırdılar. Bəziləri isə heç olmasa doğru analiz etmək üçün müxtəlif mənbələri oxumağa belə tənbəllik etmişdilər və bu çıxışlarında çox aydın hiss olunurdu. Ümumi yayılmış bəzi məlumatlar səviyyəsində danışırdılar və təbii ki məlumatlı tamaşaçıya maraqlı deyildi. Bəzi fikirlər isə tamamilə doğru yanaşma deyildi. Misir hadisələrində də eyni vəziyyət olmuşdu. Bir neçə dəfə "doğru deyil bu yanaşma" dediyimdə hətta tanınmış bir televiziyanın həmin proqramdan məsul bir əməkdaşı "Qənirə xanım o proqramlarda o adamların danışması lazımdır. Belə məsləhətdir" demişdi. Demişdim ki, ölkədə İraqı, Suriyanı, Misiri görənlər, bilənlər, orada çalışan mütəxəssislər nədən məsləhət deyil, sadəcə o adamlar məsləhətdi. Üzümə baxıb ciddi bir cavab verə bilməmişdi. Bu məsələdə televiziyaların əksəriyyəti eyni vəziyyətdədir".



Fazil Mustafa



Qənirə Paşayeva

TV-lərdən birində ara-sıra siyasi şərhçi olaraq çıxış edən **politoloq Elçin Mirzəbəyli** isə "Yeni Müsavat"a açıqlamasında hər iki deputatın haqlı olduğunu bildirdi və vəziyyətin düzəlməsi üçün təkliflərini də irəli sürdü: "Ekspertlərlə bağlı ciddi problemlər var. Bu sahədə ciddi ixtisaslaşma baş verməyib. Yəni mümkün deyil ki, bir ekspert dünyanın bütün regionlarında baş verən prosesləri izləyə və təhlil edə bilsin. Mütəxəssislərimizin sayı da çox azdır. Bir qayda olaraq, konkret sahələr üzrə elmi fəaliyyətlə məşğul olan insanlar ya mətbuatdan qaçır, ya da öz fikirlərini dəqiq şəkildə ifadə edə bilmirlər. Digər tərəfdən, ekspertlərin əməyinin qiymətləndirilməsi ilə bağlı da çox ciddi problemlər var. Şou-proqramların aparıcılarına, insanların hissləri ilə oynayan avantüristlərə daha çox dəyər verilir, nəinki ekspertlərə. Ekspert də insandır, onun da tələbatları var, hava-su ilə yaşamır ki? Hər hansı bir müzakirədə iştirak etmək üçün araşdırma aparır, hazırlaşır və bütün bunlara vaxt sərf edir. Qiymətləndirmə olmayanda isə təbii ki, bu və ya digər sahəni bilməyənlər, yaxud öz üzərində işləməyənlər üçün meydan açılır, ya da ekspertlər onlara göstərilən münasibətin qarşılığını verir, müzakirələrə səthi yanaşırlar. Yəni səbəblər müxtəlifdir. Başqa bir səbəb isə ekspert anlayışı ilə bağlıdır. Ekspert, siyasi şərhçi tərəf ola bilməz. Əgər hər hansı bir ekspert konkret bir hadisənin şərhi zamanı Türkiyənin, Rusiyanın, yaxud ABŞ-ın maraqlarını nəzərə alırsa, o artıq ekspert kimi yox siyasətçi kimi çıxış edir. Ekspert yalnız ictimaiyyət qarşısında vətəndaşı olduğu dövlətin maraqlarını, ictimai maraqları nəzərə alıb nəyisə deməyə bilər. Təəssüf ki, artıq Türkiyə telekanallarının özündə də bu incə sərhədlər gözlənilmir. Türkiyənin əksər telekanallarında son zamanlar aparılan müzakirələrdə ekspert rəyləri nəzərə çarpmır, sadəcə təbliğat aparılır".

**E.Mirzəbəyli dedi ki, dəfələrlə həmkarlarına birlikdə real fəaliyyət göstərən ekspert klubu yaratmaq təklifini verib:** "Adını da müəyyənləşdirmişdim: Bakı Ekspert Klubu (BEK). Bu klubda gənc politoloqları müzakirələrə hazırlamaq olar. Təhsil vacibdir, amma efirdə müzakirələrə qatılmaq üçün təcrübə, nitq mədəniyyəti olmalıdır, fikirlərini dəqiq ifadə etməyi bacarmalısan. Təəssüf ki, bu ideyanı indiyədək reallaşdıra bilməmişəm. Yeni nəsil formalaşmalıdır və onların formalaşmasına da dəstək vermək lazımdır. Buyursunlar, çox sevdiyim və dəyər verdiyim insanlar-Fazil bəy və Qənirə xanım bu ideyanın gerçəkləşməsinə dəstək versinlər, cəmi 1 il sonra nəticəsini görəcəklər. Təkcə televiziyalar yox, dəstəyə ehtiyacı olan çap mediası da bundan bəhrələnə biləcək".

❑ **Etibar SEYİDAĞA**

# Amerika FES-in əli ilə dünyanı dəyişir - iddia

## Neft ölkələrinin iqtisadiyyatı risk altında, ucuzlaşma qaçılmazdır

**ABŞ-ın Federal Ehtiyat Sisteminin (FES) dollarla bağlı uçot dərəcəsini artırmasından sonra bazarlar buna ciddi reaksiya verməyə başlayıb. Neftin ucuzlaşmasının davam etməsi, həmçinin zəif valyutaların məzənnəsinin ucuzlaşması ilk önə çıxan məsələlərdir.**

Bəzi ekspertlər FES-in qərarının neft istehsalı ilə məşğul olan, iqtisadiyyatı neftdən asılı ölkələri ciddi risk altına qoyduğunu bildirirlər. Bildirilir ki, OPEK hasilatı azaltmaqla, bu istiqamətdə bəyanatlar verməklə durumu az da olsa, dəyişməyə çalışır. Ancaq bunun da ciddi effekt verəcəyi ehtimalı azdır. Bu səbəbdən ekspertlər neftdən asılı iqtisadiyyatların hər FES qərarından sonra narahatedici formada dəyişikliyə məruz qalacağını vurğulayırlar. Ancaq FES-in qərarının daha çox ABŞ-a yönəldiyi qənaətində olan ekspertlər bunun əksini iddia edirlər. Yəni FES ABŞ iqtisadiyyatının gələcəyinə hesablanmış addımlar atır.

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı bildirdi ki, FES-in qərarları ABŞ iqtisadiyyatının inkişafından doğan nəticədir: "Amerika iqtisadiyyatı olduqca böyükdür. İqtisadiyyatın həcmi kifayət qədər yüksək səviyyədədir. Amerikanın öz iqtisadi parametlərinə görə qərar verdiyini söyləmək daha düzgün olardı. Bunun neftlə birbaşa əlaqəsi yoxdur. Əgər söhbət neft qiymətlərinin endirilməsi yolu ilə təsir mexanizmlərinin yaradılmasından getsəydi, buna Amerikanın kifayət qədər böyük imkanları var. Bazara sözlü müdaxilələrlə təsir göstərmək imkanı var. Necə ki, Rusiya və ərəb ölkələri, OPEC ölkələri sözlü müdaxilələrlə son vaxtlar qiyməti qaldırırlar, ABŞ da bu cür addım ata bilər. Son dövrlərdə neft hasilatı ən pik həddinə çatmasına baxmayaraq, sözlü müdaxilələrlə qiyməti 55 dollara qədər qaldıra biliblər. Amerikanın da böyük sözlü müdaxilələr etmək imkanı var. Bir neçə dəfə böyük neft korporasiyalarının rəhbərləri və yaxud Amerika Administrasiyası neftlə bağlı neqativ proqnozlar səsləndirsə, bu, bazara daha çox təsir göstərər. Düşünürəm ki, belə addımlar olmursa, deməli, Amerikada bu məsələ tamam başqa kontekstdə həll olunur. FES-in faiz artımına getməsi isə Amerikanın öz makroiqtisadi göstəricilərindən irəli gəlir. Orada işsizlik kifayət qədər sürətlə azalır, iqtisadi aktivlik artır, ÜDM-də ciddi artım var. Yəni iqtisadiyyat yüksəldikcə, iqtisadi artım olduqca, əlavə investisiyaların ölkəyə cəlb olunmasına imkan yaranır. FES faiz artımı ilə buna nail olur. Yəni dolların dünyada faiz artımı ilə dəstək olur. Bu, birbaşa Amerika iqtisadiyyatının özü ilə əlaqəlidir. Neft ölkələrinə təsir mexanizmlərinə gəldikdə, FES-dən əlavə kifayət qədər böyük imkanları var. Bunu neft vasitəsi ilə etməsi məntiqsiz görünər ən azından. Yəni Amerikanın öz dəngələrinə uyğun olaraq FES qərar verir. Düşünürəm ki, gələn il nəzərdə tutulmuş üç faiz artımının baş tutmasının da böyük ehtimalı var. Həm iqtisadiyyatın daha yaxşı göstəricilərlə üzə çıxması, həm inflyasiyanın kifayət qədər normal səviyyələrə qalxması, iqtisadi aktivliyin artması imkan verəcək ki, gələn il FES faiz artımına getsin. Bu faiz artımı baş verdikdə dünya iqtisadiyyatına, maliyyə-kredit sisteminə, o cümlədən xammal bazarına da təsirsiz ötüşmür. Bahalı dollar həmişə xammal qiymətlərinin daha da ucuzlaşmasına səbəb olur".



❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 281 (6602) 17 dekabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Qarabağ strategiyasına düzəliş edə bilər

İsrail baş nazirinin Bakı səfəri həm də Kremlin İrəvanı silahlandırması və vahid ordu məsələsinə cavab kontekstində qiymətləndirilir; **rusiyalı tarixçi-analitik:** "Bakı Moskva ilə yeni silah anlaşması imzalamayacaq, əgər..."

**İsrail baş naziri Benyamin Netanyahunun Bakı səfəri yəqin ki, hələ bir müddət də siyasi təhlilçilərin diqqətində olacaq. Əsas səbəblərdən biri də Ermənistanla müharibə vəziyyətində olan Azərbaycanın İsraillə mövcud olan sıx hərbi-texniki əməkdaşlığı və həmin əməkdaşlığın Moskva və İrəvanda yaratdığı narahatlıqdır.**

Ermənistan timsalında təlaşın motivi aydındır - təcavüzkar ölkə Azərbaycanın İsrail hesabına daha da güclənməsini həzm edə bilmir - üstəlik, buna əyani şəkildə 4 günlük aprel müharibəsi zamanı əmin olub. Rusiya isə silah bazarında varlı-imkanlı Azərbaycanı İsrailin xeyrinə itirmək istəmir - bu, bir.

İkincisi isə, Kremlin Qarabağla bağlı siyasəti belədir ki, münaqişə tərəfləri arasında hərbi balans yaratmaqla konfliktin hərbi fazaya keçməsinə imkan verməsin, yerdə qalan zamanda isə problemlə manipulyasiya eləməklə Azərbaycan və Ermənistanı istədiyi müddətdə öz təsir dairəsində saxlasın. Azərbaycanla İsrailin hərbi və hərbi-texniki sahədə yüksək səviyyədə olan əməkdaşlığı isə sözsüz ki, Moskvanın bu strateji planını pozur. Nədən ki, bu zaman hərbi balansı Azərbaycanın xeyrinə dəyişir.

***

*Bəs Netanyahunun son Bakı səfəri bu kontekstdə regiondakı duruma, özəlliklə də Dağlıq Qarabağ ixtilafına nə vəd edir, yekun nəticələr və gözləntilər nə ola bilər?*

Musavat.com-un məlumatına görə, rusiyalı tarixçi-alim və analitik Oleq Kuznetsovun bu xüsusda rusdilli vesti.az saytına şərhi diqqətçəkicidir. Ekspert öncə Azərbaycan prezidenti İlham Əliyevin birgə mətbuat konfransı zamanı İsraildən 5 milyard dollarlıq silah alınması barədə söylədiyi fikirləri şərh edib.

**Onun əminliyinə görə, belə bir açıqlama ilk növbədə İrəvana və Moskvaya ünvanlanıb**: "Əlbəttə ki, bu, ən əvvəl Ermənistana ünvanlıdır. Yəni qoy İrəvan bilsin, daha doğrusu, dərk eləsin ki, Qarabağda hərbi eskalasiya olsa, onu nə gözləyir. Erməni hərbçiləri isə bu ilin aprelində, necə deyərlər, öz dərilərində Azərbaycan ordusunun sərəncamındakı tank əleyhinə sistemlərin və pilotsuz kamikadzelərin effektini hiss ediblər - hansıların mövcudluğu ki, ermənilər üçün tam gözlənilməz olub. Bu fonda Azərbaycan prezidentinin bəyanatını təxminən belə qiymətləndirmək olar: bizdə belə silahlar çoxdur".

**Ekspertin fikrincə, bəyanatdakı daha bir ünvan təbii ki, Kremldir:** "Bununla Bakı Moskvaya açıq şəkildə bildirib: bizim sizinlə 6 milyard dollarlıq silah kontraktımız var, İsraillə isə - 5 milyard dollarlıq. Bu, o deməkdir ki, biz döyüş texnikasının alınmasının alternativ mənbəyinə malikik. Buradan da iki nəticə çıxır:

**1.** Azərbaycan yalnız ən yüksək keyfiyyətli qabaqcıl hərbi texnikada maraqlıdır. **2.** Əgər Moskva Dağlıq Qarabağla bağlı mövqeyini dəyişməsə, o zaman Bakı tərəfindən yeni kontraktlar daha olmaya bilər - üstəlik, döyüş texnikasının alternativ tədarük qaynaqları varsa. Yuxarıda deyilənləri rezüme şəklində ifadə eləsək, bunu qeyd edə bilərik: Azərbaycan hətta silahlar alınmasında da özünün çoxvektorlu siyasətinə sadiqdir - hansı siyasət ki, həqiqətən onun müstəqilliyindən xəbər verir".

**Tarixçi-analitik bu xüsusda İsraillə Azərbaycan arasında müdafiə sahəsində yeni anlaşmaların olmasını mümkün sayır:** "Fikrimcə, yeni kontraktlar mümkündür. İsrail Azərbaycan ordusunu keyfiyyətli və döyüş texnikası ilə təmin eləməklə özünü vicdanlı tərəfdaş kimi sübut edib. Odur ki, onu kiminləsə əvəzləməyin mənası yoxdur - üstəgəl, gündəlikdə Rusiyanın Ermənistana "İsgəndər" raket komplekslərinin verilməsinə cavab olaraq, İsraildən "Dəmir günbəz" raketdən və havadan müdafiə sisteminin alınması durursa. Bu mənada Azərbaycanla İsrail arasında hərbi-texniki əməkdaşlığın davam etdirilməsi üçün bütün obyektiv zəminlər mövcuddur və ola bilsin, biz tezliklə yeni kontraktlar haqda məlumat alacağıq".

***

Azərbaycan-İsrail hərbi əməkdaşlığının davamını zəruri edən daha bir motiv əlbəttə ki, Rusiya ilə Ermənistan arasında ortaq hərbi qruplaşma yardılması ilə bağlı imzalanan müqavilədir. Moskva rəsmiləri nə qədər bəyan eləsələr də ki, bu, Azərbaycan əleyhinə yönəlməyib, bir çox hərbi və siyasi ekspertlər fərqli düşünürlər. Məsələn, sabiq dövlət müşaviri, **politoloq Qabil Hüseynliyə** görə, rus-erməni vahid ordu birləşmələri haqqında razılaşma dünyada analoqu olmayan çox təhlükəli bir müqavilədir və Rusiyanın ekspansionist siyasətinin təzahürü kimi dəyərləndirə bilər (axar.az).




**Politoloq Rusiyanın Ermənistanla 25 illiyə imzaladığı hərbi sazişin bir növ daha genişləndirilmiş variantı olan vahid ordu birləşmələri haqda razılaşması ilə Ermənistanın suverenliyinin heçə endirildiyini də deyib:** "Vahid ordu birləşmələri haqqında razılaşmanın bəzi şərtləri sadəcə, siyasi gedişlərdir. Sənəddə gizli saxlanılan məqamlar var və guya yalnız Ermənistan ərazisində olan rus qoşunları erməni ordusu ilə birləşdirilir. Ancaq Ermənistanın baş naziri Karen Karapetyan mərasimdən sonra Rusiyanın Rostovda yerləşən Cənubi Qafqaz Ordusunun Baş Qərargahına baxış keçirdi. Bu, o anlama gəlir ki, Ermənistan qoşunları Rusiyanın Cənubi Qafqaz Ordusunun hissələri ilə də əlaqələndirilir. Üstəlik, müqavilənin şərtlərinin İsrailin baş nazirinin Azərbaycana səfəri zamanı açıqlanması xüsusilə erməni ictimai fikrinə hesablanıb və İrəvana bir mesajdır. Bütün müddəaları açıqlanmasa da, əslində, sözügedən sənəd dünyada analoqu olmayan çox təhlükəli bir müqavilədir və Rusiyanın ekspansionist siyasətinin təzahürü kimi dəyərləndirə bilər".

**Politoloq hesab edir ki, vahid ordu birləşmələri razılaşması bütövlükdə Cənubi Qafqaz bölgəsi üçün təhlükəli nəticələrə yol aça bilər:** "Müqavilə təkcə Azərbaycan və Gürcüstana deyil, Türkiyəyə qarşı da çevrilib. Çünki Rusiya bu kiçik anklavda böyük ordu hissələri, xüsusi modern silahlar toplamaqla Yaxın Şərqdən tutmuş, ta Şimali Qafqaza qədər, böyük bir ərazisini psixoloji təhdid altında saxlamaq imkanları əldə edir. Zənnimcə, belə bir alyansın yaradılması beynəlxalq təşkilatlar tərəfindən araşdırılmalı və siyasi qiymət verilməlidir".

**Yada salaq ki, Rusiyanın Ermənistanla imzaladığı vahid ordu birləşmələri haqqında anlaşmanın şərtlərinə əsasən, qruplaşmanın tərkibinə Rusiyanın Ermənistandakı 102-ci hərbi bazası və Ermənistanın İrəvan yaxınlığında yerləşən 5-ci ordu korpusu daxil ediləcək. Dinc dövrdə qruplaşma Ermənistan ordusunun Baş Qərargahına, müharibə zamanı isə Rusiya ordusunun Baş Qərargahı və Cənub Hərbi Dairəsinə tabe olacaq. Qruplaşma həmçinin Ermənistan və Rusiya prezidentlərinin də əmrlərini yerinə yetirəcək. Vahid ordu birləşməsinin tətbiqi haqqında proqramı Rusiyanın 102-ci bazası və vahid ordu birləşməsi haqqında komandanlıq tətbiq edəcək. Yəni İrəvan birbaşa özünün 5-ci korpusunun bütün fəaliyyətini Moskvaya güzəştə getmiş olacaq.**



Vahe Avetyan

# İrəvandan Bakıya gələn ermənilərin öldürülməsinə çağırışlar səslənir

**Ermənistanın 1in.am nəşri öz məqaləsində Ermənistan-Azərbaycan sülhməramlı platformasının iştirakçılarını aşıq-aşkar öldürməyə səsləyir. Bu barədə şəxsi Facebook səhifəsində həmin platformanın üzvü olan erməni hüquq müdafiəçisi, yazıçı-publisist Vahe Avetyan yazıb.**

Vahe Avetyan bütün fəalları beynəlxalq təşkilatlara bu cür təxribatçı hərəkətlərin qarşısının alınması üçün müraciətlər ünvanlanmağa çağırıb. "Azərbaycanlılar, mənə sizin köməyiniz lazımdır!" - Vahe Avetyan yazıb.

Xatırladaq ki, Vahe Avetyan və sənədi imzalayan digər iki erməni fəalı - Vaan Martirosyan və Süzan Cangiyan az öncə Bakıda olublar. Onlar Xocalı soyqırımı abidəsini ziyarət edib, Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyini müdafiə edən mövqe ortaya qoyublar.



# Neft hasilatının azalması Azərbaycana necə təsir edəcək...

## Ekspertlər bildirirlər ki, Azərbaycan hökuməti həcmi azaltsa da, maksimal dərəcədə satış həyata keçirməyə çalışacaq

**OPEK ölkələrinin bir neçə gün əvvəl hasilatı azaltmaq barədə qərarı Azərbaycana da təsir göstərəcək. Azərbaycan neft istehsal edən ölkələrin Vyana görüşündə gündəlik neft hasilatını 35 min barel azaltmağa razı olub. Bu da hazırkı hasilatının 5,5 faizi deməkdir. Ekspertlər bu bəyanatı fərqli prizmadan dəyərləndiriblər.**

Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində bu, pair addımdan başqa bir şey deyil: "Bu anlaşma olmasaydı belə, Azərbaycanda sutkalıq neft hasilatı təbii yolla, yəni quyularda olan vəziyyətlə əlaqədar gələn il təxminən 30 min barel azalacaqdı. Yəni onsuz da Azərbaycanda hasilatın azalması tendensiyası olur. Bu il təxminən 20 min barel azaldı, gələn il təxminən 30 min barel azalma olacaq. Hasilatın azalması ilə satışın azalması eyni şey deyil. Bunu çox zaman qarışdırırlar. Hasilatın azalması o demək deyil ki, hansısa ölkə, o cümlədən Azərbaycan daha az neft satacaq. Çalışacaq ki, daxili resurslar hesabına daha çox neft satsın. Yəni hasilatın təbii azalmasını belə yolla kompensasiya etmək istəyəcəklər. Ona görə düşünmürəm ki, öhdəlik digər ölkələrdə olduğu kimi, Azərbaycanda da yerinə yetiriləcək. Çünki may ayına qədər götürülmüş öhdəlikdir və bunun yerinə yetirilməsinə nəzarət mexanizmləri yoxdur. İkinci də, təbii yolla azalma baş versə belə, Azərbaycan hökuməti çalışacaq ki, maksimal dərəcədə satış həyata keçirsin. Bunun üçün də daxili istehlakın azalması fonunda bu, baş verəcək. Hətta rəsmi rəqəmlər də bu yöndə müəyyən işlərin getdiyini göstərir. Benzin istehsalı ölkədə bu ilin 11 ayında 7 faiz azalıb. Deməli, 7 faiz benzin istehsalı azalıbsa, xam neft ixracatı artıb. Yəni düşünmürəm ki, bunun bir ciddi nəticələri olacaq. Azərbaycan üçün əsas məsələ neftin qiyməti məsələsidir. Bu yöndə OPEK-dən kənar ölkələrə dəstək verirlər, ona görə anlaşmaya imza atıblar ki, növbəti neft ölkəsinin bu anlaşmaya qoşulması xəbəri dünya mediasına yayılsın. Yəni bu, əslində psixoloji bir effekt yaratdı. Belə ciddi - nə iqtisadi, nə neft bazarına təsir göstərəcək bir gücə malik deyil. Hasilatın bu qədər azalması Azərbaycana ciddi bir təsir göstərməyəcək".

**Ekspert Qubad İbadoğlu** bildirir ki, bu razılaşma ilə Azərbaycan riskə gedir: "Azərbaycan neft istehsal edən ölkələrin Vyana görüşündə gündəlik neft hasilatını 35 min barel, hazırkı hasilatının 5,5 faizi qədər azaltmağa razı olub. Əgər həqiqətən də Azərbaycan neft ixracatını gündə 35 min barel aşağı salarsa, bu, o deməkdir ki, cari qiymət səviyyəsində ölkəmiz gündə 1,925 milyon dollar, ayda isə 57,5 milyon dollar ixrac gəlirlərindən məhrum ola bilər. Bu məbləğin 47 milyon dollarının xalis mənfəət olduğunu nəzərə alsaq, onda aylıq təmiz valyuta itkisi orta aylıq qeyri-neft ixracatının yarısı qədər olacaq. Rəsmi məlumatlarda bu ilin 9 ayının yekunlarına görə, Azərbaycanda orta aylıq qeyri-neft ixracatı 93,7 milyon dollar təşkil edib. Belə olan halda valyuta gəlirlərinin azalması manatın məzənnəsinin ucuzlaşmasını şərtləndirən amilləri daha da fəallaşdıra bilər".

**Ekspertin sözlərinə görə, bu məsələdə həlledici rol dünya bazarında neftin qiymətinin hansı səviyyədə tarazlaşmasından asılı olacaq:** "Belə ki, dünya bazarında neft təklifinin azaldılması qərarı hər barelə görə qiymətin gələn ildən orta səviyyəsinin cari səviyyədən 10 dollar və daha çox yüksəlməsinə gətirib çıxaracağı halda Azərbaycanın qiymət artımından əldə etdiyi fayda miqdardan itirdiklərindən çox ola bilər. Əks təqdirdə, miqdarın itkisini qiymət artımını kompensasiya edə bilməyəcək. Bu isə Azərbaycan kimi iqtisadiyyatı və milli valyutası neft gəlirlərindən asılı olan ölkələr üçün risklidir".

❑ RÖYA

**Binəqədi rayonu, Xocahəsən qəsəbəsi, "Motodrom" adlanan yaşayış massivinin sakinləri onlara evlərinin sökülməsi müqabilində veriləcək kompensasiyanın azlığından şikayətçidirlər. Əhalinin narazılığının başqa bir səbəbi ərazinin qiymətləndirməsi zamanı qiymətləndirmə şirkətinin düzgün hesablama aparmamasıdır. Bu səbəbdən qəsəbə sakinləri dəfələrlə toplaşaraq, etiraz aksiyaları keçiriblər və "Yeni Müsavat"da bu məsələ sakinlərin istəyi ilə bir neçə dəfə işıqlandırılıb.**

# "Motodrom"dakı sökülən evləri qiymətləndirən şirkətlə bağlı mübhəm davam edir

## Sakinlər və jurnalistlər bu gizliliyi çözə bilmir; naməlum şəxslər sakinləri təhdid edir: "Evlərinizi başınıza uçuracağıq"

Metronun "Avtovağzal" stansiyasının depo ərazisinə düşən 70-ə yaxın evin sökülməsi nəzərdə tutulub. Məlumata görə, onlardan yalnız 18 ev sahibi kompensasiya ilə razılaşıb.

"Yeni Müsavat" qəzetinin əməkdaşı bu günlərdə yenidən adıçəkilən ərazidə olub və sakinlərin şikayətlərini dinləyib.

### Yataq otağı 600, dəhliz 300 manatdan...

Qəsəbə sakinlərinin dediyinə görə, ərazinin qiymətləndirilməsi müstəqil şirkət tərəfindən aparılmayıb. Həmin şirkət bu işi aparan qurumlara yaxın olub və onun vasitəsilə ilə mənzillərə özlərinə sərf edən məbləğ qoyublar. Kompensasiyada marağı olanlar, mənzillərin kvadratmetrində qazanclı çıxmaq üçün özlərinin təyin etdiyi qiymətləndirmə şirkətinin təsdiq etdiyi kompensasiyanı əsas gətirirlər. Bu günədək "Motodrom"da yaşayan sakinlər qiymətləndirmə şirkəti haqqında bir məlumat əldə edə bilməyiblər. Şirkətin adını belə öyrənmək cəhdləri alınmayıb.

Ərazidə olduğumuz zaman öyrəndik ki, söküntü işinə yalnız Bakı Metropoliteni nəzarət edir, ölçü işlərini və pul məsələsini də elə həmin qurum aparır. Sakinlərin sözlərinə görə, burada ölçü işləri də kor-təbii şəkildə aparılır. Yəni yataq otağına bir qiymət qoyulur, mətbəxə başqa qiymət... Misal üçün, evlərdə qonaq və yataq otaqlarının kvadratmetri 600 manatdan, dəhliz 300 manatdan hesablanır. Bir sözlə, konkret qiymət yoxdur. Bəzi evlərdə isə hamam və tualet ölçüyə daxil edilmir. Ölçü işləri aparan şəxslərlə mənzil sahibi bir növ bazarlıq edir. Evlərin kvadratmetrinin 500-600 manatdan qiymətləndirilməsinin səbəbini isə vətəndaşlara əsaslı şəkildə izah edən yoxdur".

### Sakinlərə təhdid: "10 günə çıxmasanız, evinizi başınıza uçuracağıq"

Sakinlər deyirlər ki, evləri Bakı Metropoliteninin ərazisinə düşdüyü üçün sökülməsi mütləqdir. Hətta gecikib. Bənövşəyi xəttin tuneli bu evlərin altından keçdiyindən, olduqca təhlükəlidir. Lakin vətəndaşlar verilən kompensasiya ilə razılaşmadığından köçmək niyyətində deyillər. Artıq qazma işləri yaşayış evlərinin altında aparıldığından evlərdə çatlar əmələ gəlib. Tunelə vurulan sement qaynayıb, evlərin bünövrəsini partladıb. Bir çox evlər qəzalı duruma düşüb. Məhz bu səbəbdən də məcbur qalıb verilən 500 manat kompensasiya ilə razılaşanlar olublar. Məlumata görə, bu günədək cəmi 15 ev sahibi köçüb.

Köçməyənlər isə təzyiqlərə məruz qalır. Kompensasiya ilə razılaşmayanlara naməlum şəxslər tərəfindən xəbərdarlıq edilir. Onlara bildirilir ki, əgər 10 gün ərzində köçməsələr, evlərini başlarına uçuracaqlar. Qəsəbə sakinləri bu şəxslərin kimliyinin məlum olmadığını bildirirlər.

**Qəsəbə sakini Sabir Məmmədhüseynov** naməlum şəxslər tərəfindən özbaşınalıq edildiyini dedi: "Tanımadığımız adamlar qəflətən həyətə daxil olub, ölçü işləri aparırlar. Haradan gəldiklərini, kim olduqlarını belə açıqlamırlar. Hərəsinin əlində bir qovluq, boğazlarında qalstuk... Mənimlə elə danışırlar ki, elə bil öz evlərindədirlər. 1997-ci ildən burada yaşayıram. Söküntü işinə başlanandan camaatı cana yığıblar. Tez-tez qazı, işığı kəsirlər. Elə vəziyyətdir ki, evdə palto ilə gəzirik. Məqsədləri odur ki, kompensasiya ilə razılaşmayanları məcbur köçürsünlər. Bunların məqsədi 300-500 verib, camaatı köçürməkdi. Tanış adamlar var ki, onları bir neçə dəfə Bakı Metropoliteninin yaratdığı qərargaha çağırıb, razı salmağa çalışıblar. Deyiblər ki, 600 manatdan pulunuzu alın, çıxın. Əgər götürməsəniz, işığınızı, qazınızı kəsəcəyik. Camaat isə deyib ki, bu pul bizi qane etmir. Bizə hökumətin verdiyi pul lazımdır. Nazirlər Kabinetinin və məhkəmənin qərarını təsdiqlədən bildiriş sənədi tələb ediblər. Ancaq kompensasiya verənlərin əllərində heç bir əsası olmayıb. Həmin şəxslər özlərini təqdim etməsələr də, Bakı Metropolitenin işçiləri olduğunu əminliklə deyə bilərik".

### Hesablaşma vaqonda aparılır...

Evləri plana düşən "Motodrom" sakinlərinə kompensasiyanı hansı qurumun ödədiyi də bəlli deyil. Sakinlər həmin şəxslərlə "Avtovağzal" metrostansiyası yaxınlığında müvəqqəti qoyulmuş vaqonlarda hesablaşırlar. Kompensasiya ilə razılaşanlar onlara verilmiş əlaqə telefonlarına zəng edir, daha sonra bu yerə gedərək kompensasiya məsələsini danışırlar.

Musavat.com-un əməkdaşı da həmin əraziyə baş çəkib, məsələni aydınlaşdırmağa çalışıb. Yaşayış evlərinin ətrafında tunel tikintisi gedən zonada bir neçə vaqon qoyulub, bura tuneldə çalışanlar üçün nəzərdə tutulub. Onlarla yanaşı burada Binəqədi Rayon İcra Hakimiyyətinin nümayəndələri və Bakı Metropoliteninin işçiləri də əyləşir. Mənzillərin ölçü və kompensasiya məsələsinə həmin məkanda baxılır. Ərazidə olduğumuz zaman məsul şəxslərlə görüşməyə cəhd etsək də, mühafizəçilər buna imkan vermədilər. Yalnız onu öyrənə bildik ki, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini burada tez-tez olur, söküntü işlərində yaxından iştirak edir. Söküntünü aparan şirkət isə "Körpü-Bina-Tikinti" MMC-dir.

**Adının çəkilməsini istəməyən sakin kompensasiyaların hesablanma qaydasını belə izah etdi**: "Dəfələrlə yuxarı instansiyalara buradakı özbaşınalıqlarla bağlı şikayət etdim. 50-yə yaxın şikayətçi ilə birgə Milli Məclisə getdik, millət vəkilləri ilə görüşdük. Amma nəticəsi olmadı. Deputatlar şikayətimizə baxacaqlarına və bu barədə bizə məlumat verəcəklərinə dair söz verdilər. Ancaq bir ay keçsə də, bizimlə görüşən Bahar Muradova və Çingiz Qənizadədən səs çıxmadı. Bir sözlə, bizi başlarından etdilər. Sonra məcbur qalıb, qoyulan şərtlərlə razılaşmalı oldum. Bakı Metropoliteninin hüquq şöbəsində Nəsib adlı şəxslə görüşüb, kompensasiya məsələsini danışdıq. Mənzilin ölçü işlərini aparıb, kompensasiyanı dəqiqləşdirdikdən sonra Biləcəri qəsəbəsində "Armi market"in yanında notariusa getdim, oradan mənə çek verildi, onu isə "Kapital" banka aparıb, kompensasiyamı aldım".









### "Satın alan orqan "Bakı Metropoliteni" QSC-dir"

Musavat.com olaraq, məsələ ilə bağlı Maliyyə Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Nazirliyin mətbuat xidmətinin rəhbəri Mais Piriyev bu məsələnin Bakı Metropoliteninin məsuliyyətində olduğunu bildirdi: "Bu məsələ ilə bağlı, zəhmət olmasa, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə müraciət edin. Çünki bu işlərdə "satın alan orqan" kimi "Bakı Metropoliteni" müəyyən olunub. Mələsə onlarlıqdır..."

**Yazıda adları çəkilən qurumların, şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

❑ Məğrur MƏRD

❑ Fotolar müəllifindir

# Xalqa "az ye" deyən şişman deputat haqda sensasion məlumatlar

## İnternet axtarış resurslarında "Hüseynbala Mirələmov" yazmaqla, deputatın kim olduğunu öyrənmək an məsələsidir

**YAP Xətai Rayon Təşkilatının sədri, deputat Hüseynbala Mirələmovun adı mətbuatda daim neqativ planda, kriminal mövzularda keçib, qanunsuz bizneslə məşğul olması dəfələrlə diqqətə çatdırılıb.**

İlkin kapitalının mənbəyi bilinməsə də, kifayət qədər geniş maliyyə imkanlarına malik olan H.Mirələmov sonuncu dəfə də elə mənfi planda ictimai qınaqla üzləşib. Son bahalaşmadan sonra yaranmış sosial gərginliyin üstünə iqtidar deputatları benzin tökür. Bunu qəsdlə edirlər, yoxsa savadsızlığın nəticəsidir - bu, ayrıca mövzunun araşdırmasıdır. Fakt budur ki, xeyli deputat və məmur ağızlarını açanda ölkə bir-birinə dəyir.

Bu dəfə H.Mirələmov ağzını açıb, gözlərini yumub. Və xalqa xitabən deyib:

**"Ayağını yorğanına görə uzat. Azdırsa, az ye, çoxdursa, çox ye. Adamlar var ki, ət, balıq, çörək yemir ki, formada qalsın. Demək istəyirəm ki, çox yemək insanı tez qocaldır. Az yemək lazımdır".**

1945-ci il təvəllüdlü Hüseynbala Mirələmova "cavan qalıb" demək insafsızlıq olar. Əgər ekspertizaya onun fotosunu təqdim etsək və bu şəxsin fotoya görə qidalanması haqda rəy verin desək, yəqin ki, "az yemir, ona ortabab iştahalı da demək olmaz, babat iştahası var, bir oturuma 1 qoyunu yeyib, ayağa qalxar" kimi fikirlər eşidə bilərik. Mirələmov isə yeyir və deyir - az yeyin.

*Axı niyə Azərbaycan xalqı az yeməlidir? Niyə orqanizmin normal tələbatını qaydasında yerinə yetirməməli, ödəməlidir? Siz bu xalqdan deyilsiniz? Özünüz yeyib, xalqa "az yeyin" sözünü necə deyə bilirsiz? Diliniz belə sözləri deməyə necə qatlanır?*

Adınızın qabağındakı titullar sizə bu xalqa görə verilməyib?

**Vikipediyada Hüseynbala Mirələmov adının qarşısında belə adlar, titullar bəs deyincədir - yazıçı, ssenarist, millət vəkili, Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri, texnika elmləri doktoru, professor, Azərbaycan Mühəndislər Akademiyasının müxbir üzvü, Rusiya Mədən Akademiyasının, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, çoxsaylı elmi və bədii əsərlərin müəllifi, "Qızıl qələm", "Qızıl dərviş", "Qızıl buta", "Abdulla Şaiq" və "Rəsul Rza" mükafatları laureatı, Fransa Sənayeçilər Assosiasiyasının "Napoleon" qızıl medalının sahibi.** MDB ölkələri üzrə 8 dəfə **"İlin direktoru"** adına layiq görülmüşdür.


Hüseynbala Mirələmov

Sizin dərvişliyinizi görən olmayıb. Dərviş dilinə, iştahına sahib, əqidəli ola gərək.

Şair kimi də ortaya babat, yaddaqalan bir şeir qoya bilməmisiz. Ssenarileriniz əsasında qoyulan tamaşalar haqda da xoş söz deyənlər az yeməyənlərdir.

Azərbaycan Qaz Emalı Zavodunda direktor olduğunuz vaxtlarda büdcəni "qazlamağınız" isə az qala hər kəsə bəllidir. 8 dəfə "İlin direktoru" adına layiq görülməyinizin meyarlarını bilməyən var? Belə adların "pulunu ver, adını al" prinsipi əsasında verildiyini kim bilmir ki?

Bu gedişlə "ilin dietoloqu" adına da iddia edə bilərsiz, Hüseynbala müəllim.

Heyf ki, özünüz çox yeyirsiz, üstəlik biznesmen olduğunuzu da iddia edirsiz. Pullar hardandır? Mənbəyini açıqlaya bilərsiz?

3 dəfə parlamentə düşə bilmisiz. Bu müddətdə 1 dəfə xalqın dərd-sərindən danışmısız ki, indi durub "az ye" şəklində məsləhət verirsiz? Bəs gəlirləriniz haqda deklorasiya necə, vermisiz bu günə qədər?

1-2 il əvvəl Azərbaycandakı sosial-iqtisadi durum haqda sizin adınızdan yazılan palaz-palaz yazılardan xəbəriniz var? Bilirsiz orada nələr "yazırdız"?

Oxuyan elə bilərdi ki, bu ölkəyə zaval yoxdur. Bu həmin vaxt baş verirdi ki, ağlı başında olan hər kəs böhran adlı bəlanın ölkəni üzük qaşı kimi əhatəyə aldığını bilirdi. Böhranın başımızın üstünü kəsməyində, əlini cibimizdəki qəpik-quruşa uzatmağında sizin kimi az yeməyənlərin rolu o qədər böyükdür ki...

Siz adınızdan belə yazılar dərc olunanda haradasa yeyirdiniz. Bu xalqın kisəsindən formalaşan büdcədən bu gün də yeməkdəsiniz və xalqa "az ye" deməkdən də çəkinmirsiz...

Google axtarış sistemi var - imkan varsa, yeməkdən başınız ayılanda, ad-soyadınızı daxil edin və barənizdə yazılanlar haqda məlumat alın.

*Bilirsiz axtarış nəticəsində üzə çıxan ilk yazı hansıdır?*

Başlığı belədir: **"Hüseynbala Mirələmov kriminal aləmə dəstək verib?"**

Digər başlıq isə Milli Məclisə düşməyiniz haqdadır: **"Hüseynbala Mirələmov artıq deputatdır - 5 milyon manatlıq yatırıma".**

Bir başqa yazının başlığı isə **"Hüseynbala Mirələmov qardaşı oğlunu söydü"**dür.

Necədir?

İndi bu yazıların mövzusu haqda uzun-uzadı yazılar yazmaq, həmin mövzuları davam etdirmək olar. Cəmiyyət üçün bunda fayda da ola bilər. Xalq ona "az ye" deyən deputatın barəsində özlüyündə nəticə çıxarmaq şansı qazanar.

2012-ci ilin iyulun 17-də sizə məxsus "1001 Gecə" istirahət mərkəzində Ramal Bayramov öldürüldü. Öldürən kənar şəxs deyildi. Qardaşınız oğlu Rəşad Mirələmov Ramal Bayramovu odlu silahdan açdığı atəşlə qətlə yetirib, Səməd Mənsimovu isə yaralamışdı. Mərhumun əmisi Atlıxan Bayramov hadisə zamanı orada olan oğlunuz Fərid Mirələmovun həbsini tələb edirdi.

*Həmin günlərdə əsəblərinizin tarıma çəkilməsini necə, unutmamısız ki?*

Bax, həmin o yazıya elə 2012-ci ilin isti yay günlərində verdiyiniz cavab da var.

Elə belə də demişdiz: **"Mən prokuror deyiləm, müstəntiq deyiləm. Öldürənin də atasına lənət, o birinə də deyəcəm indi. Ağzımı açdırmayın də! Qurtarın də! Əsəblərimi pozmusuz".**

Bu sözləri deyəndə siz yenə də deputat idiniz. Adınızın qarşısında bir xeyli titullar qalaqlanmışdı. Elə o dövrdə də az yemirdiniz...

❑ **Elşən BALAXANILI**

# Bakıda qardan sonra yollarda yenə problemlər yaşandı

## Ekspert: "Belə hallarda sürücülərin də üzərinə məsuliyyət düşür"

**Bakıda dekabrın 15-də qar yağdı və yollarda yenə acınacaqlı vəziyyət yaşandı. Dekabrın 15-də günün ikinci yarısından sonra ictimai nəqliyyatın da hərəkətində problem yaranması səbəbindən bir çox yerlərdə insanlar yollarda qalmalı oldular. Konkret olaraq metronun "Neftçilər" və "Xalqlar Dostluğu" stansiyası ərazisindəki yollarda, "20 Yanvar" avtomobil dairəsində, Bayıl istiqamətində, Bayraq meydanından paytaxtın mərkəzinə doğru gələn hissədə, Balaxanı, Zığ və digər yollarda problemlər yaranıb.**

*Nə üçün hər dəfə eyni problem yaşanır?*

**Ekspert Azər Allahverənov** "Yeni Müsavat"a bildirib ki, eyni problemin hər dəfə yaşanmasının müxtəlif səbəbləri var: "Birincisi problem kanalizasiya sistemi ilə bağlıdır. Bakıda su axıntıları var və bunlar faktiki olaraq kanalizasiya sistemləri vasitəsi ilə yolların üzərindən çəkilməlidir. Bu gölməçələr olduğu müddətdə yollarda hərəkət edən nəqliyyat vasitələrinin hərəkətində ləngimələr baş verir. Nəticə etibarı ilə tıxaclar yaşanır. Eyni zamanda burada başqa bir nüansda var. Belə ki, bəzi hallarda yollarda gölməçələr böyük həcmdə olduğu zaman, kanalizasiya quyularının qapağı suyun təsirindən, yaxud da kimlərsə tərəfindən yerindən çıxarılır. Şəxsən bu kimi halların şahidi olmuşam. Nəticədə isə bu da yollarda problemlərə səbəb olur. Yəni tıxacların yaranmasına səbəb təkcə elə yolların buz bağlaması və ya qarlı olması deyil".



**Ekspert bildirib ki, belə hallarda sürücülərin də üzərinə məsuliyyət düşür:**

"Müvafiq qurumlar bu cür havalarda sürücülərə müraciət edirlər ki, onlar ictimai nəqliyyatdan, alternativ yollardan istifadə etməyə üstünlük versinlər. Ancaq biz şahidi oluruq ki, havalar pisləşən kimi hər kəs öz avtomobili ilə getdiyi ünvana istiqamət alır. Nəzərə alsaq ki, həmin şəraitdə yolların nəqliyyat vasitələrini ötürmə qabiliyyəti azalır, deməli, belə olduğu halda tıxacların da olması mümkündür. Ona görə ictimai nəqliyyatdan istifadə etmək lazımdır. Dünən, Heydər Əliyev prospektindən "Koroğlu" metrosu istiqamətinə hərəkətdə çox böyük sıxlıq yaşanırdı. Bu da yuxarıda qeyd etdiyimiz problemlərdən qaynaqlanır. İnsanlar ictimai nəqliyyatdan istifadə edərlərsə, problem xeyli dərəcədə azalar. Demirik ki, insanların hamısı maşınlarını atıb elə ictimai nəqliyyatla getsinlər. Ancaq harada, necə mümkündürsə, o fürsətdən yararlanmaq lazımdır".

**A.Allahverənov prezidentin bu məsələ ilə bağlı sərəncamına da diqqət çəkib:**

"Müvafiq icra qurumlarının da üzərlərinə düşən öhdəliklər var. Elə bəzi hallarda problemlər bu öhdəliklərin yerinə yetirilməməsindən qaynaqlanır. Ötən ay prezident İlham Əliyevin sərəncamı ilə işçi qrupu yaradıldı. İşçi qrupunun əsas fəaliyyəti bilavasitə ona hesablanıb ki, qısa müddətdə araşdırmalar aparılsın və yollarda yağıntı sonrası problemlərə səbəb olacaq amillər aradan qaldırılsın. Dünyanın inkişaf etmiş ölkələrində də bu kimi yağıntı problemləri ola bilər. Ancaq yol infrastrukturunun effektiv işləməsi orada təmin olunur. Həmin praktikaları da öyrənib, Azərbaycan reallıqlarına uyğun tətbiq etmək olar. Bu istiqamətdə ölkədə müəyyən işlər aparılır. Təbii ki, problemin aradan qaldırılması bir gündə mümkün deyil. Getdikcə ölkədə bu problemlərin aradan qaldırılmasının şahidi olacağıq".

**"Azəravtoyol" ASC-nin mətbuat xidmətində isə məsələ ilə əlaqədar bildirib ki, qurum paytaxt ərazisində balansında olduğu küçə və prospektlərə, o cümlədən respublikanın avtomobil yollarına kifayət qədər maşın-mexanizm və texnika çıxarıb:** "Qar təmizləyən və qum səpən texnikalar avtonəqliyyat vasitələrinin hərəkətində problem müşahidə olunan ərazilərə cəlb edilib. Qısa müddət ərzində sözügedən yollarda qarın təmizlənməsi və duz-qum qarışığının səpilməsi işləri həyata keçirilib. Nəticədə hərəkətin təhlükəsizliyi və fasiləsizliyi təmin olunub. "Azəravtoyol" ASC-ə məxsus maşın-mexanizmlər və canlı qüvvə gecə boyu qarın ən çox yağdığı və buzlaşmanın olduğu ərazilərdə vəziyyətə nəzarət edib, hərəkətin təhlükəsizliyi təmin olunması məqsədi ilə gecə və səhər saatlarında buzlaşma baş verən yollara qum-duz qarışığı səpilib".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 281 (6602) 17 dekabr 2016

# "İcra başçısı məni halal mülkümdə yaşamağa qoymur"

## "Torpaq sahəmi və evimi icra başçısına satmadığım üçün o, mənə yurdumda yaşamağa imkan vermir"




ŞİRVAN APELLYASİYA MƏHKƏMƏSİ

İş № 3(106)-98/2015

« 13 » avqust 2015-ci il

Bakı şəhəri, Nəsimi rayonu D.Əliyeva küçəsi ev 243, mənzil 8-də yaşayan Ağayev Babaəli Məmiş oğluna

Şirvan Apellyasiya Məhkəməsinin 3(106)-98/2015 saylı, 13 avqust 2015-ci il tarixli qərarının surəti məlumat üçün Sizə göndərilir.

Qoşma: Şirvan Apellyasiya Məhkəməsinin 3(106)-98/2015 saylı, 13 avqust 2015-ci il tarixli qərarının surəti 03 vərəqədə

Hakim: Zəki Babayev

**"Torpaq sahəmi və evimi icra başçısına satmadığım üçün o, mənə yurdumda yaşamağa imkan vermir. Mənə qarşı haqsızlıqlar edir, adamlarını üstümə göndərir, əkin sahələrimi məhv edir".**

Bu sözləri Lerik rayonu Zərinqala kənd sakini, əmək veteranı, Baba Ağayev redaksiyamıza gələrək bildirib. B.Ağayevin sözlərinə görə Lerik rayonunun icra başçısı və müavini onun kənddəki sakit həyatını kabusa çevirməklə məşğuldurlar: "Lerikin Zərinqala kəndi İranla sərhəddə yerləşən digər 20-dək kəndlə birlikdə keçən əsrin 51-ci ilində boşaldılaraq, sakinləri aran rayonlarına deportasiya edilmişdi. Yalnız mərhum prezident Heydər Əliyev 70-ci illərdə hakimiyyətdə olarkən keçmiş sakinləri geri qaytararaq öz ata-baba yurdlarında yaşamasına şərait yaratdı. Zərinqala kəndinin sakinlərinə də Lerik rayon XDS Rəyasət Heyətinin 25 may 1992-ci il tarixli qərarı ilə ata-baba yurdlarına qayıdıb ev tikmək, təsərrüfatla məşğul olmaq üçün torpaq sahələri verildi. Mən əmək təqaüdünə çıxandan sonra - 1993-1994-ci illərdə burada özümə ev tikib elə o vaxtdan da burada yaşayıram. 1993-cü ildən 2015-ci ilədək sakit həyatımızı yaşamış, kənd təsərrüfatı ilə məşğul olmuşuq. Amma bir müddətdir rayonun icra başçısı Rövşən Bağırov və onun birinci müavini Cəlil Baxşiyev hər vasitə ilə işimizə əngəllər yaradır. 2015-ci ilin yazında icra başçısı sürücüsü vasitəsilə məni qəbula dəvət etdi. Qəbuluna getdiyimdə bizim kənddən xoşu gəldiyini və onun da orada bir evi olmasını istədiyini dedi. Mən onun təklifinə məmnuniyyətlə razılıq verib bildirim ki, gəlib baxarsınız, biz 5 nəfər kənd sakini bir- birimizə qardaş, əmioğluyuq.

Daha da sevinərik ki, sizin orada eviniz olsun, bəyəndiyiniz yerə tikinti materiallarını göndərin, tikinti işinə də sizə hər cür köməklik etməyə hazırıq. Bir müddət sonra isə başçının birinci müavini mənə bildirdi ki, başçı və o özü bizim ərazini bütövlükdə almaq istəyirlər. O, hətta evimin və qeyd etdiyim ərazinin alınması üçün bir simvolik qiymət də dedi - 15-20 min manat. Bu təkliflə razılaşmadım. Mən öz ata-baba torpağımı yenidən tərk etmək istəmirdim. Ona görə də birinci müavin C.Baxşiyevə rədd cavabını verdim. Bu vəziyyətdən sonra bizə qarşı əsl müharibə başlandı. İcra hakimiyyəti, xüsusilə onun birinci müavini öz adamlarını üstümüzə qaldırmağa başladı. Qonşu Divaqac kəndinin sakinləri Xanəhmədov Ramiz və oğlu İlkin, habelə onların yaxın qohumları Nuriyev Eynulla və onun dəfələrlə oğurluq və xuliqanlıq hərəkətlərinə görə polisə düşmüş oğlanları, Lerik şəhər sakini, icra başçısının birinci müavini C.Baxşiyevin əlaltısı Sahiyev Miriş hasarımızı sökdülər. Əkin sahəsində olan meyvə ağaclarının bir hissəsini qıraraq "bu torpaq bundan sonra bizə verilib" deyə xuliqanlığa başladılar. Bildirdilər ki, bu torpağı bu gündən onlara rayonun "padşahı" verib.

Ondan bir gün sonra Xanəhmədov Ramiz oğlu ilə birlikdə təkrar həyətimizdəki torpağa daxil olaraq bel ilə başıma zərbə endirmək istəyərkən yanımda olan Qosmaliyan kənd sakini Oqtay Əhmədov məni zərbədən yayındırdı. Bir-iki gün sonra isə işimizə əngəl törətmək üçün əkin sahəmizi suvarmaqdan ötrü quraşdırılmış 250 manatlıq su nasosunu və onun elektrik xətlərini gecə ikən oğurladılar.

Şikayətim də hüquq-mühafizə orqanlarında obyektiv araşdırılmadı, 18 iyul 2016-cı ildə Lerik rayon Məhkəməsi İXM-nin 296-cı maddəsi ilə qərəzli qərar qəbul edərək R.Xanəhmədovla yanaşı, məni 50 də manat cərimə etdi. Lakin Şirvan Apelyasiya məhkəməsi verdiyim şikayətə obyektiv yanaşaraq Lerik məhkəməsinin qərəzli qərarını ləğv edib, mənim barəmdə olan əsassız qərara xitam verdi. R.Xanəhmədov barədə verilən cəzanı isə qüvvədə saxladı. Bunlardan nəticə çıxarmayan icra başçısı və müavini yeni ehtiyat qüvvələrini işə saldı. Divaqac kənd sakini Nuriyev Eynulla və oğlanları 2016-cı ilin iyul ayının 8-də ərazimizdən biçdiyimiz 3 maşın quru otu gecə ikən oğurlayıb apardılar.

Bu şikayətimizin də nəticəsi bugünədək yoxdur. O vaxt mən xəstəliyimlə əlaqədar Bakı şəhərinə gələndən sonra bu şəxslər üçün yenə fürsət yaranır və mənə məxsus su sexinin qapısını sındırıb içəridə suyu qazlaşdıran aparatın (saturator) üstündəki 2 ədəd elektrik mühərriklərini, orada olan 4 ədəd stolu, yeməkxananın çoxlu mətbəx avadanlıqlarını, təxminən 24-26 mm-lik armaturları oğurlayıb apardılar. Bu iş də ört-basdır edilidi. 25 noyabr 2016-cı ildə bu şəxslər heç nədən çəkinmədən ərazimizdəki "setka" hasarı yenə sökərək traktorla əkin sahəmizə daxil olub, meyvə ağaclarımıza ziyan vurmaqla əkin sahəmizi şumlayıblar. Dəfələrlə aidiyyəti qurumlara müraciət etsəm də, işimə obyektiv yanaşılmır. Özünü şəhərin padşahı hesab edən icra başçısına torpağımı satmadığım üçün mənim başıma bu oyunları açır. Qəzet vasitəsilə prezidentə müraciət edərək xahiş edirəm ki, bütün bu qanunsuzluqların qarşısını almaqda mənə kömək etsin".

**Yazıda adı hallanan tərəflərin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **Günel MANAFLI**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarını dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Dəm qazı daha bir can aldı

**Bakıda dəm qazı daha bir nəfərin həyatına son qoyub. Xəzər rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, Qala qəsəbə sakini, 1959-cu il təvəllüdlü Qənifə Əhməd qızı Xudiyeva yaşadığı evdə dəm qazından boğularaq ölüb.**

Faktla bağlı araşdırma aparılır.



## Duman olacaq, yollar buz bağlayacaq, qar yağacaq...

**Dekabrın 17-də Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən, yağmursuz, səhər zəif dumanlı və çiskinli olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya bildirilib ki, axşama doğru bəzi yerlərdə yağış, sulu qar, qar yağacağı gözlənilir. Mülayim şimal-qərb küləyi arabir güclənəcək. Havanın temperaturunun gecə 0-3° şaxta, gündüz 0-3° isti, Bakıda gecə 0-2° şaxta, gündüz 1-3° isti olacağı gözlənilir.**

Atmosfer təzyiqi normadan yüksək olacaq - 767 mm civə sütunundan 772 mm civə sütununa yüksələcək. Nisbi rütubət 85-95% təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə yağış, sulu qar, qar yağacağı gözlənilir. İntensiv olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6° şaxta, gündüz 0-5° isti, dağlarda gecə 9-14° şaxta, gündüz 0-5° şaxta olacağı gözlənilir. Yollar buz bağlayacaq.

# Bu ilin qış dəbi

**Dekabrın 22-si qış fəsli ölkəmizə qədəm qoyacaq. Hava şəraiti isə qışın artıq çoxdan gəldiyini deməyə əsas verir. Qış fəsli bizim həyatımızda, xüsusən də geyimlərimizdə böyük əhəmiyyət kəsb edir. Digər fəsillərdə necə dəbli geyinirdiksə, qış fəslində də bunu edə bilərik. Əksəriyyət insanlar soyuq havada nə gəldi geyinir ki, isti olsun. Ancaq o isti paltarları da dəbə uyğun seçmək olar. Maraqlıdır, bəs bu qış nələr dəbdə olacaq? Xoruz ilinin dəbli rəngləri hansılardır?**

## Qalın şərflər, yorğanı xatırladan gödəkcələr...bəs bu geyimlər neçəyədir?






Ötən qış mövsümündə yumşaq və incə pastel tonlar dəbdə idisə, bu gün tamamən fərqli seçimlərə müraciət olunur. Dəbli xanımlar bu il daha rəngli və canlı rənglərdən istifadə etmək istəyirlər ki, qışın soyuğunu az da olsa yumşalda bilsinlər. Bu qış rəngarəng geyinməklə siz pozitiv ab-hava yarada, həm də dəbli görünə bilərsiniz. Bu ilin dəbdə olan rənglərinə gəlincə isə bu il al qırmızı və qırmızının müxtəlif tonları dəbdədir. Sahil mavisi də qışın ən dəbli tonları sırasındadır. Bu rəng eleqantlıq rəmzidir. Sahil mavisi həm də xanımları sirli göstərir. Zümrüd- yəni qabarıq yaşıl rəng də 2016-2017-ci illərin dəbliləri siyahısındadır. Xardal sarısı da sizi daha dəbli və zövqlü göstərəcək. Hava rəngi isə şən xasiyyəti olanların seçimidir. Çəhrayı rəngli geyimlərlə isə incə və işgüzar xanımlar pozitiv ab-hava yarada bilərlər. Soyuq boz rəng klassik obrazı yaratmaq üçün ən doğru rəng seçimi olan geyimlərdir. Qəhvəyi tonlarda olan libasları bir-birinə uyğunlaşdırıb geyinmək sizi daha dəbli göstərəcək. Bənövşəyi ilin ən dəbli rəngləri sırasındadır. Diqqət çəkməyi sevənlər bu rəngdə libaslardan istifadə etsinlər.

Bir sıra rəngin uyumuna diqqət edək. Tünd göy rəng istənilən fakturada digər rənglərlə çox gözəl uyğunluq yaradır və bundan da başqa, bütün rəng dərili xanımlara yaraşır. Yumşaq səma rəngli göy rəng və onun üzərindən yayı xatırladan yaşıl rəng obraza şarm və incəlik verir.

Əgər siz düşünürsünüzsə ki, boz və boz çalarlı rənglər darıxdırıcı və sıxıcı görünür, yanılırsınız. Bu rəngin fonunda siz ciddi, dəbli və maksimum özünə inamlı xanım təsirini bağışlayacaqsınız. Həmçinin bu il kaşemir tipli sviterlərdən, donlardan, gödəkçələrdən və paltolardan istifadə etməyə çalışın. Mövsümdə eləcə də, peyzaj rənglərindən istifadə edin və geyimlərinizi müxtəlif cür aksessuarlarla canlandırın. Bu il ədyalı xatırladan qalın yun şərflərə bürünmək olduqca dəbdədir. Şərf nə qədər böyük və uzun olsa bir o qədər dəbli görünür. Burada ən vacib detal şərfin boyuna bir neçə dəfə dolanması və həcmli görünməsidir. Yumşaq yorğanları xatırladan sırıqlı kurtkalar da bu il dəbdədir. Dizaynerlər bu mövsüm sırıqlı kurtkalara daha çox diqqət yetirib. Əgər canınızı isti saxlayan nə isə axtarırsınızsa, onda sırıqlı kurtkalardan qorxmaq lazım deyil. Əksinə, bu geyim mövsümün trendləri arasında ən iddialı namizəddir. Yeri gəlmişkən, sırıqlı kurtkaların zəngin tarixi çox-çox uzaq keçmişə gedib çıxır. Belə kurtkaları I Pyotr dövründən əvvəl Rusiyanın Patriarxı geyinirdi. O dövrdə "bədəni qızdır" adlandırılan bu geyimin sırıqlarının səliqəli olmasına xüsusi fikir verilir, üzərini gözəl naxışlarla bəzəyirdirlər. Buradan belə nəticəyə gəlmək olar ki, müasir sırıqlı gödəkcələr onların prototipidir. Sırıqlı kurtkaların dəbə minməsi 90-cı illərin sonlarına təsadüf edir. Müasir modapərəstlərin qarderobunun əvəzedilməz kurtkaları Martin Marjelanın sayəsində dəbə daxil olub. Belə ki, o, 1999-cu ildə kolleksiyasında qar kimi ağappaq sırıqlı kurtkalar təqdim etmişdi. Sonralar digər dizaynerlər Maritinin fikrindən bəhrələnərək öz kolleksiyalarında da bu geyimə böyük verir. Sırıqlı kurtkalar həm uzun, həm də qısa versiyalarda təqdim olunub. Xüsusi qeyd etmək lazımdır ki, cari mövsümdə uzun və daha həcmli modelləri aktualdır. Hündürboy qızlara dizdən aşağı, qısa boylu və miniatür xanımlara isə qısa, amma həcmli modellərə yaraşacaq. həmçinin bu kurtkanın bir-iki ölçü böyük olmasının da ciddi qüsuru yoxdur. Bu stili vodolazka və ya ələ sviterlər tamamlayacaq.




Artıq yeni qış kolleksiyaları mağazaların vitrinlərini bəzəyir. Endirim kampaniyaları da var. Ancaq bu endirim kampaniyaları bu ilin qış dəbinə deyil, ötən ildən qalma qış paltarlarınadır. Yeni kolleksiyaların qiyməti isə çox bahadır. Adi bir şərfin qiyməti 50 manatdır. Xüsusi donlar, yubkalar, bir sözlə bu ilin dəbinə uyğun satılan ziyafət geyimlərinin qiyməti 150 manatdan başlayır. Gündəlik geyimlərə gəlincə isə şalvarlar 35 manatdan, koftalar 25 manatdan, yubkalar 30 manatdan başlayır və modelinə görə qiyməti də dəyişirdi. Çantaların qiyməti isə 50 manatdan, çəkmələr 70 manatdan başlayır. Baş çəkdiyimiz bir sıra mağazalarda yeni mallara da endirim olsa da buna çox az mağazada rast gəldik. Satıcılar yeni kolleksiyaların baha olmasını həmin malları Türkiyədən gətirmələri və dollarla almaları ilə əlaqələndirirdilər. Ümumi müşahidəmizə əsasən deyə bilərik ki, gənc xanımlar və kişilər 70 manatdan, yaşlılar isə 150 manatdan başlayaraq geyim ala bilərlər.

**Günel MANAFLI**

# "Dedi məndə silah var, ordan-burdan ataram qorxar..."

## Sabiq məmuru killer tutub güllələdən qadın məhkəmə qarşısına çıxarıldı

**Bakıda sabiq məmurun güllələnməsini sifariş verən qadın və onunla birlikdə sifarişi yerinə yetirən Ramil Hüseynli hakim qarşısına çıxarılıb. Bu iş üzrə daha üç nəfər təqsirli bilinərək həbs edilib.**



Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Damir Əliyevin sədrliyi ilə təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.

Sifarişçi Günel Rasim qızı Süleymanovanın bu cinayəti qisas məqsədi ilə planlaşdırdığı məlum olub. Bu iş üzrə Günelin atası Rasim Süleymanov da həbs edilib. Digər həbs edilən şəxslər isə Həsənov Ramin və Kübarov Kübardır.

Onların güllələdiyi şəxs isə Bərdə Rayon İcra Hakimiyyətinin sabiq işçisi Hüseyn Qasımov olub.

Günel Süleymanova cinayəti sifariş verdiyini etiraf edərkən killer kimi razılaşdığı Ramil Hüseynliyə Qasımov tərəfindən zorlandığını deyib və qisas məqsədi ilə onu qorxutmasını istəyib.

"Dedim ki, o adamı qorxut, mənə belə-belə edib. Evinin yerini göstərdim. Dedi, məndə silah var, ordan-burdan ataram, qorxar" - deyə G.Süleymanova deyib.

Ramil Hüseynli isə ifadəsində fərqli fikir bildirib və Günelin ona pul verməli olan şəxsi qorxutmasını istəyib.

O da müəyyən olunub ki, Ramil Hüseynli bu işi həyata keçirmək üçün Güneldən külli miqdarda pul istəyib, o da buna razılıq verib və pulun bir hissəsini alıb.

Məhkəmədə məlum olub ki. R.Hüseynli əvvəllər adam oğurluğuna görə 12 il həbsxanada yatıb.

Qeyd edək ki, Günel Süleymanova və həyatına qəsd edilən Qasımov qonşu olublar. Qasımovun oğlunun məhkəmə işi ilə əlaqədar Günel məsələni həll edəcəyinə söz verərək, külli miqdarda pul alıb. O, dələduzluq yolu ilə əldə etdiyi pulu mənimsəyib və işi həll etməyib. Əks tərəfin təkidindən bezən Günel Süleymanova onu aradan götürmək üçün killer tutub.

Məhkəmə prosesində prokuror cinayət işi ilə tanış olmaq üçün vaxt istəyib.

Məhkəmə prosesi dekabrın 21-də davam etdiriləcək.

**İ.MURADOV**

# Bakıda avtobus sürücüləri qadını zorlayıblar

**Bakıda avtobus sürücüləri 30 yaşlı qadını döyərək zorlayıblar. "Report"un xəbərinə görə, hadisə 4-cü mikrorayon, Mir Cəlal Paşayev küçəsində qeydə alınıb.**

Məlumata görə, 30 yaşlı A.Q. (ad şərtidir) adlı qadın Nəsimi Rayon Polis İdarəsinə (RPİ) müraciət edərək bildirib ki, o, 65 nömrəli sərnişin avtobusunda həmin avtobusun sürücüsü Camal Tağıyev ilə tanış olub. Bir neçə gün sonra isə o, C.Tağıyevin evindəki qonaqlıqda iştirak edib. Qadın yeyib-içmək məclisində tanımadığı şəxsin (sonradan onun 61 nömrəli avtobusun sürücüsü 1979-cu il təvəllüdlü Tacəddin Zeynalov olduğu aydınlaşıb) qeyri-etik hərəkətlərinə etirazını bildirib.

Bundan sonra sürücülər A.Q.-nı zorlayıblar. Hadisə yerinə Nəsimi RPİ-nin 19-cu Polis Bölməsinin əməkdaşları gəliblər.

**Fakt üzrə Nəsimi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 149.2.1-ci (zorlama, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə cinayət işi başlanılıb. Hər iki şəxs tutulub.**